# Təhsilalanların Davranış Kodeksi

| Sənədi tərtib edən Struktur bölmə | Redaksiya | Qeydiyyat nömrəsi | Qüvvəyə minmə tarixi | Qüvvədən düşmə tarixi |
|---|---|---|---|---|
| İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi | 1-ci | H/37-19092025İKİŞ/TDK | 19.09.2025 | 18.09.2028 |

| **Kodeksin Bəyannaməsi** | |
|---|---|
| **Məqsəd** | Bu sənəd Azərbaycan Tibb Universitetində (ATU) təhsil alan bütün şəxslər üçün gözlənilən davranış standartlarını, təhsilalanların və universitetin bu istiqamətdə daşıdığı məsuliyyətləri müəyyənləşdirmək məqsədi daşıyır. |
| **Fəaliyyət dairəsi** | Bu Təhsilalanların Davranış Kodeksi (bundan sonra – “Kodeks”) aşağıdakıları əhatə edir:<br>• ATU-da qeydiyyatdan keçmiş bütün təhsilalanları və onların ATU icması daxilində və ya digər icma üzvləri ilə birgə həyata keçirdikləri fəaliyyətləri;.<br>• ATU-nun sabiq təhsilalanlarını, hal-hazırda qeydiyyatda olmayan, əvvəllər qeydiyyatda olmuş və ya mübadilə proqramı çərçivəsində ATU-da təhsil almış şəxsləri – əgər müvafiq davranış ATU icmasının üzvü olduqları müddətdə baş vermişdirsə;<br>• Qeydiyyatda olan təhsilalanları – əgər müvafiq davranış onların ATU-da hər hansı bir təhsil proqramına qəbuluna və ya qeydiyyatına birbaşa şəkildə aidiyyəti olduqda;<br>• Universitetin özü, onun əməkdaşları və əlaqəli qurumları<br>Bu Kodeks, ATU-nun fəaliyyəti, xidmətləri, prosesləri və ya ATU icmasının üzvünün davranışı ilə bağlı olan bütün müraciət və şikayətlərə şamil olunur. |

**Mündəricat**


1. **Ümumi müddəalar**
2. **Universitetin öhdəlikləri**
3. **ATU İcması**
4. **Açıq və hörmətə əsaslanan müzakirə prinsipləri**
5. **Təhsilalanların öhdəlikləri**
6. **Hüquqi və normativ çərçivə**
7. **Digər məsələlər**
8. **Təhsilalanların şikayətləri**
9. **Tədris və icra intizamına əməl edilməsinə görə fərqlənmiş təhsilalanların mükafatlandırılması**

## 1. Ümumi müddəalar

ATU, təhsilalanlara öz akademik potensiallarını tam şəkildə reallaşdırmağa imkan verən mənalı və faydalı bir tədris və tədqiqat təcrübəsi təqdim etməyə sadiqdir. Bu öhdəliyin tərkib hissəsi olaraq, Universitet icmasının bütün üzvlərindən tədris və tədqiqatda mükəmməllik, innovasiya və cəmiyyətlə fəal əməkdaşlıq kimi dəyərlərə və ortaq məqsədlərə uyğun davranış sərgiləmələri gözlənilir.
Bu Təhsilalanların Davranış Kodeksi, təhsilalanların keyfiyyətli təhsil, təhlükəsiz və ədalətli öyrənmə mühiti, eləcə də müsbət təhsil təcrübəsi ilə bağlı gözləntilərini ətraflı şəkildə müəyyən edir. Eyni zamanda, təhsilalanlardan gözlənilən davranış standartları və məsuliyyətlər də bu sənəddə açıqlanır. Bu öhdəliklər akademik dürüstlük prinsiplərinə və ATU icmasında ədalətli, vicdanlı, hörmətli, ahəngdar və inklüziv mühitin təşviqinə və qorunmasına ortaq məsuliyyət əsasında qurulmuşdur.
Eyni zamanda, ATU-da daxil olan şikayətlərin idarə olunması, araşdırılması və müvafiq şəkildə həllinə dair institusional çərçivəni təmin edir. Kodeks, onun ayrılmaz tərkib hissəsi olan "Təhsilalanların Akademik Dürüstlük Qaydaları**",** "Davranış kodeksinin və Akademik dürüstlük Qaydalarının pozulmasına görə intizam məsulliyyəti və onun tədbiqi qaydaları", "Şikayətlərin idarə edilməsi və araşdırılması Proseduru" sənədi ilə birgə oxunmalı və tətbiq olunmalıdır.

## 2. Universitetin Öhdəlikləri

Universitetin öhdəliklərini iki əsas məqsəd istiqamətləndirir:

**Məqsəd 1: Təhsilalanların öz potensiallarını tam şəkildə reallaşdıra bilmələri üçün əlverişli tədris, öyrənmə və tədqiqat mühitinin təmin edilməsi**

Universitet təhsilalanlara aşağıdakı imkanları təqdim edir:

- seçim meyarları etibarlı, açıq, ədalətli və şəffaf olan kurslara və ya proqramlara qəbul üçün namizəd kimi dəyərləndirilmək;
- yüksək keyfiyyət standartlarına cavab verən və müvafiq peşə tələblərini ödəyən kurslara və tədris proqramlarına qeydiyyatdan keçmək;
- akademik kursları uğurla başa vurmaq üçün müvafiq ixtisasa malik akademik heyətə, akademik və tədris dəstəyi xidmətlərinə, tədris materiallarına, avadanlıqlara və digər resurslara münasib şəkildə çıxış əldə etmək;
- kurslar, inzibati prosedurlar və qiymətləndirmə tapşırıqları ilə bağlı aydın və vaxtında məlumat almaq;
- tədris, öyrənmə və tədqiqat mühiti ilə bağlı rəy bildirmək;
- orijinal dissertasiyalar, esse və digər təqdim olunmuş işlərdə mövcud olan müəllif hüquqlarına uyğun şəkildə tanınmaq; ATU əməkdaşlarının nəşr olunmuş elmi işlərinə verdikləri töhfələrə görə tanınmaq və intellektual mülkiyyət hüquqlarına dair qanuni paylarının tanınmasını təmin etmək;
- təhlükəsiz, inklüziv və məhsuldar akademik mühitdə təhsil almaq və fəaliyyət göstərmək.

**Məqsəd 2: Təhsilalanlara Universitetin dəyərləri və rəhbər prinsipləri ilə uzlaşan bir universitet təcrübəsinin təqdim edilməsi**

Universitet aşağıdakı məsələlərin təmin olunmasına çalışır ki, təhsilalanlar:

- təhsilalanların debatlarda fəal iştirakını təşviq edən, eləcə də akademik azadlıq və söz azadlığı prinsiplərinə uyğun olaraq fərqli baxış və fikirlərini sərbəst ifadə edə bildikləri akademik mühitdə təhsil alsınlar;
- Universitet icmasının dəyərli üzvləri kimi nəzakət və hörmətlə qarşılansınlar;
- seçilmiş tələbə nümayəndələri vasitəsilə Universitetin qərarvermə proseslərində iştirak etmək imkanı ilə təmin olunsunlar;
- Universitetin siyasət, prosedur və fəaliyyətinin bütün aspektlərində ədalətli, qərəzsiz və ardıcıl şəkildə rəftar ilə qarşılaşsınlar;
- bütün növ qanunsuz ayrı-seçkilik və təzyiqlərdən, o cümlədən cinsi xarakterli təzyiqlərdən uzaq, bərabərlik prinsiplərinə uyğun şəkildə rəftar ilə qarşılaşsınlar;
- şəxsi, sağlamlıq, akademik və/və ya əlilliklə bağlı çətinliklər yaşadıqları halda münasib dəstək xidmətlərinə çıxış imkanına malik olsunlar;
- onlar barəsində saxlanılan məlumat və sənədlərə münasib şəkildə çıxış hüququna malik olsunlar;
- şəxsi həyatlarının məxfiliyinə hörmət olunması və bu məxfiliyin qanunvericiliyə uyğun şəkildə qorunması ilə təmin olunsunlar (məsələn: qanunsuz video çəkiliş və ya audio yazı həyata keçirtməmək və s.);
- Universitetdə yaşadıqları təcrübə ilə bağlı şikayət etmək hüququna malik olsunlar;
- təqib və təzyiq qorxusu olmadan şikayət etmək və ya apellyasiya hüququndan istifadə etmək, eyni zamanda bu məsələnin prosedur ədalətinə və məxfilik prinsiplərinə riayət olunmaqla ciddi, operativ və həssas şəkildə araşdırılacağına əmin olsunlar.

## 3. ATU İcması

ATU icmasına Universitetin özü, onun idarəetmə və qərarverici orqanları, o cümlədən ATU Şuraları və akademik idarəetmə strukturları daxildir.
ATU icmasına, həmçinin, universitetin əməkdaşları, rəsmi və fəxri titul sahibləri, müraciət edən şəxslər, təhsilalanlar, məzunlar, təhsilalan nümayəndə qurumları, ziyarətçilər, tərəfdaşlar, könüllülər və Azərbaycan daxilində və ya xaricdə universitetin və ya ona bağlı qurumların tapşırığı ilə vəzifə yerinə yetirən digər şəxslər daxildir. Bu şəxslər birlikdə "ATU icma üzvləri" adlandırılır.

Üçüncü tərəf xidmət təminatçılarının, tərəfdaş təşkilatların fəaliyyəti, xidmətləri və ya əməkdaşlarının (yəni ATU əməkdaşı olmayan şəxslərin) davranışı ilə bağlı şikayətlər bu Kodeks çərçivəsində nəzərdən keçirilə bilər, lakin müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti təşkilata yönləndiriləcəkdir.

Qeydiyyatdan keçdikdən sonra təhsilalanlar ATU icmasının üzvünə çevrilirlər. ATU icmasının üzvləri olaraq, təhsilalanlardan aşağıda qeyd olunan hallarda və yerlərdə bu Kodeksdə davranışla bağlı müəyyən edilmiş davranış standartlarına riayət etmələri və onları qoruyub saxlamaları gözlənilir:

- ATU-nun kampuslarında və infrastruktur obyektlərində, o cümlədən yataqxana tipli yaşayış yerlərində,
- ATU tərəfindən təşkil edilən və ya dəstəklənən, yaxud ATU-da təhsil və təhsilalan təcrübəsi ilə əlaqəli olan virtual məkanlarda (onlayn forumlar, icmalar və platformalar da daxil olmaqla);
- ATU-nun informasiya və kommunikasiya texnologiyaları resurslarından istifadə zamanı;
- ATU fəaliyyəti çərçivəsində həyata keçirilən tədqiqat, təhsil və ya işə inteqrasiya olunmuş öyrənmə proseslərinin baş verdiyi istənilən məkanda — o cümlədən, lakin bununla məhdudlaşmamaq şərti ilə — təcrübə proqramları, stajlar, mübadilə proqramları, ekspedisiyalar və digər praktiki fəaliyyətlər zamanı;,
- təhsilalanlar və ya təhsilalanlarla əlaqəli şəxslər ATU-nu təmsil etdikləri zaman (məsələn, sosial və idman tədbirlərində, mədəni fəaliyyətlərdə, müsabiqələrdə, konfranslarda), o cümlədən tələbə klubları çərçivəsində və ya mübadilə proqramları zamanı,
- ATU təhsilalanı ilə ATU əməkdaşı və ya əlaqəli şəxslər arasında münasibətlər zamanı,
- Universitetə məxsus, onun tərəfindən idarə olunan və ya onunla əlaqəli olan yaşayış yerlərində,
- Universitetin nəzarətində olan ayrı hüquqi şəxslərin fəaliyyət göstərdiyi məkanlarda,
- ATU ilə əlaqəli tələbə cəmiyyətləri və klublarının fəaliyyəti çərçivəsində,
- ATU-dan kənarda ATU- icmasının üzvü olduğunu bəyan edərək çıxış etdikdə.

### 4. Açıq və Hörmətə əsaslanan Müzakirə Prinsipləri

ATU-da təhlükəsiz və ədalətli öyrənmə mühitinin, eləcə də müsbət təhsilalan təcrübəsinin təşviq olunması və qorunması baxımından açıq və hörmətə əsaslanan müzakirə prinsipləri əsas dəyər olaraq qəbul edilir:

- ATU tənqidi düşüncə və açıq müzakirələri, o cümlədən mübahisəli ideyaların ifadəsini təşviq edir;
- ATU ideyaların formalaşdığı və dəyişə bildiyi açıq və dinamik bir icmadır; Universitet müxtəlif baxışların qarşılıqlı hörmət çərçivəsində araşdırılması və müzakirəsi üçün təhlükəsiz və dəstəkləyici mühit yaratmağa sadiqdir;
- Təhsilalanlar fikir ayrılıqlarını və ya rəylərini etik normalar çərçivəsində ifadə etməli və təqdim etdikləri baxış və iddialarla bağlı izahat verməyə və ya sübut göstərməyə hazır olmalıdırlar;
- Təhsilalanlar etik normalara əsaslanan və inklüziv ünsiyyətə və müzakirələrə, qarşılıqlı dinləməyə və fikir müxtəlifliyinə dəyər verməyə sadiq olmalıdırlar;
- Təhsilalanlar bir-birlərində mövcud olan – həm aşkar, həm də gizli – fərqlilikləri qəbul etməlidirlər;
- Təhsilalanlar digər şəxslərə fikir ayrılığını təqib və ya cəza qorxusu olmadan ifadə etmək imkanı tanımalıdırlar.

### 5. Təhsilalanların Öhdəlikləri

ATU icmasının üzvləri olaraq, təhsilalanlar aşağıdakı altı əsas öhdəliyə riayət etməlidirlər:

**Öhdəlik 1: ATU-nun qeydiyyat şərtlərinə riayət etmək**:

- qəbul üçün müəyyən edilmiş uyğunluq tələblərinə cavab vermək;
- Universitetin bütün müvafiq siyasət və prosedurları barədə məlumatlı olmaq;
- “myAMU” sistemində qeyd olunmuş əlaqə məlumatlarını hər zaman aktuallığını qorumaqla yeniləmək;
- ATU tərəfindən onların ATU e-poçt ünvanına, Moodle, Microsoft Teams və ya Universitet tərəfindən tanınan digər kommunikasiya vasitələri ilə göndərilən bütün mesajları oxumaq və zərurət olduqda cavab vermək;
- öz şəxsiyyətlərini düzgün şəkildə təqdim etmək və Universitetin əməkdaşlarının və ya əlaqəli şəxslərinin tələbi əsasında tələbə vəsiqəsini və ya şəxsiyyəti təsdiq edən fotoşəkilli sənədi təqdim etmək;
- Universitet tərəfindən müəyyən edilmiş tarixədək növbəti tədris ilində Universitetdə qeydiyyatdan keçmək;

**Öhdəlik 2: Məsuliyyətli, etik, təhlükəsiz və dürüst davranmaq:**

- tədris prosesində fəal iştirak etmək, cədvəl üzrə müəyyən edilmiş dərs və öyrənmə fəaliyyətlərində iştirak etmək (o cümlədən dərslərə gecikməmək, dərs başladıqdan sonra auditoriyaya ancaq müəllimin icazəsi ilə daxil olmaq);
  *Qeyd:* təhsilalan tərəfindən semestr ərzində fənn üzrə ayrılmış ümumi auditoriya saatlarının 20%-dən çoxunun, praktik və seminar dərslərdə tam iştirak etməsindən asılı olmayaraq, mühazirə saatlarının 40%-dən çoxunun buraxılması (1-ci dərəcəli akademik pozuntu hesab edilir) və bu hallarda universitetin onu həmin fəndən imtahana buraxmamaq hüququ vardır.
- dərsə, imtahana (attestasiyaya) gəlmədikdə sonrakı gündən gec olmayaraq bu barədə fakültə dekanlığına (şöbə müdirinə) məlumat vermək və universitetə gəldiyinin ilk günü dərs, imtahan (attestasiya) buraxmağının səbəbləri haqqında sənəd təqdim etmək. Xəstələnmə hallarında müvafiq müalicə müəssisəsinin müəyyən olunmuş formada arayışını fakültə dekanlığına (şöbəyə) təqdim etmək;
- qiymətləndirmə tapşırıqlarını müəyyən edilmiş tarix və saatadək təqdim etmək — gözlənilməz və ya istisna hallar olmadıqda;
- dürüst şəkildə davranmaq və Universitetin siyasət və prosedurlarına uyğun hərəkət etmək;
- müəllif hüquqları ilə qorunan materiallardan düzgün və ədalətli şəkildə istifadə olunmasını təmin etmək;
- öz fəaliyyət və davranışları ilə nə özlərini, nə də digər şəxsləri zərər və ya xəsarət riski altına qoymamaq;
- universitetin binalarında və ərazisində bu öhdəliyə akademik və ATU icması daxilindəki fəaliyyətlər zamanı bütün etik tələblərə riayət etmək də daxildir. Spirtli içkilərin və ya qanunla qadağan olunmuş maddələrin təsiri altında olduqları halda, dərslər, laboratoriya məşğələləri və təlimlər kimi hər hansı tədris fəaliyyətində iştirak etməmək;
- etik prinsiplərə və dürüstlüyə uyğun davranmaq, özlərinə və ya digər təhsilalana qarşı

əsassız üstünlük (digər təhsilalanı öz təsiri altına salmaq) və ya mənfi nəticə yarada biləcək hər hansı hərəkət və ya davranışdan çəkinmək;

- bu öhdəliyə plagiat (cümlədən, müqavilə əsasında tapşırıq yazdırmaq və ya gizli əməkdaşlıq), imtahanda köçürmə, sənədlərin, mənbələrin və məlumatların saxtalaşdırılması və uydurulması, eləcə də digər növ qeyri-etik davranış formalarında iştirak və ya onları təşviq etmək daxil edilir;
- Universitetin əsas funksiyalarından birinin akademik və elmi-tədqiqat sahəsində mükəmməlliyə nail olmaq olduğunu nəzərə alaraq, onun düzgün fəaliyyətinə uyğun şəkildə davranmaq;
- təhsil və tədqiqat fəaliyyətlərini düzgün həyata keçirmək üçün Universitet tərəfindən təqdim olunan və ya tövsiyə edilən proqramlar və resurslarla, o cümlədən plagiatdan yayınmağa və tədqiqatın etik tələblərinə riayət etməyə kömək edən vasitələrlə tanış olmaq;
- başqalarının təhsil alma, işləmə, tədqiqat aparma və universitet həyatında iştirak etmək, azadlıqlarını əsassız şəkildə məhdudlaşdırmayacaq şəkildə davranaraq hörmət nümayiş etdirmək;
- həkim təyinatı olmadan digər şəxslərə dərman vasitələrinin qəbul edilməsini təklif etməmək və tibbi manipulyasiyalar aparmamaq;
- Universitetdə, habelə onun ərazilərində tütün və digər sağlamlığa zərərli olan maddələri çəkməmək və istifadə etməmək;
- Universitetin laboratoriyalarında, klinikalarında, yataqxanalarında, idman zallarında, üzgüçülük hovuzunda və s. yerlərdə təhlükəsizlik qaydalarına ciddi riayət etmək;
- Universitetin ərazisinə ancaq icazə verilmiş yerlərdən (giriş darvazalarından, qapılardan) daxil olmaq;
- məhəccərlərin üzərində dayanmamaq, oturmamaq, sürüşməmək, tullanmamaq;
- pəncərəaltına çıxmamaq və yaxud orada oturmamaq;
- isitmə sisteminin, su və qaz borularının üzərində oturmamaq;
- Universitetin binalarında və ərazisində (o cümlədən, Universitetin istifadəsində olan torpaq sahələrində) qumar və s. mərc oyunlarını təşkil etməmək və oynamamaq;
- yeniliklərdən məlumatlı olmaq üçün universitetin rəsmi saytı və "Myamu"-ya ən azı həftədə iki dəfə baxmaq, elan və məktubları oxumaq;
- Universitet tərəfindən tələb olunan sənədləri şifahi və ya yazılı sorğu alındığı andan 10 (on) iş günü müddətində təqdim etmək;
- Qeydiyyat və yaxud yaşadığı ünvanda, fərdi identifikasiya məlumatlarında və digər rekvizitlərində dəyişikliklər baş verərsə, Universitetə 3 (üç) iş günü ərzində məlumat vermək;
- Ödənişli təhsil aldıqda müqavilə ilə müəyyən edilmiş müddətdə təhsil haqqını ödəmək.

**Öhdəlik 3: ATU icmasının hər bir üzvü ilə ünsiyyətdə bərabərlik və hörmət prinsiplərinə riayət etmək**

- ATU icmasının bütün üzvləri ilə nəzakətli və hörmətli şəkildə rəftar etmək.
  Bu öhdəliyə digər şəxslərin bərabər və ədalətli rəftar görmək hüququna, qanunsuz ayrı-seçkilik, təzyiq, zorakılıq və ləkələmədən azad olma hüququna, eləcə də siyasi və dini baxışlarını ifadə etmək hüququna hörmət göstərmək daxildir. Bura universitetin binaları və ərazisində, həmçinin Universitetin təşkil etdiyi tədbirlərin

keçirildiyi ərazidə Universitetin informasiya sistemlərində və şəbəkələrində siyasi fəaliyyət göstərməmək, siyasi, ideoloji, irqi, milli, dini, gender və digər motivlərlə olan ekstremist hərəkət və çıxışlar etməmək öhdəliyi də daxildir.

Bura, həmçinin, cinsi xarakterli etik pozuntulara və hüquqa zidd hərəkətlərə yol verməmək, digər şəxslər tərəfindən təhlükəli və ya qorxuducu kimi qəbul edilə biləcək davranışlardan çəkinmək, eləcə də hər hansı bir şəxsdə şəxsi təhlükəsizliyi və ya rifahı ilə bağlı qorxu yaratmamaq öhdəliyi daxildir.

- Universitetin tədris, öyrənmə, elmi və digər fəaliyyətlərinə ciddi şəkildə maneə törədə biləcək davranışlardan çəkinərək həmin fəaliyyətlərə hörmətlə yanaşmaq.

  Bu öhdəliyə Universitet tərəfindən təşkil olunan və ya onun icazəsi ilə kampus ərazisində keçirilən mədəni, sosial, idman və ya digər xarakterli tədbirlərin dəstəklənməsi və onların gedişinə mane olmamaq da daxildir.
- təhlükəsizliyin, nizam-intizamın və ATU-nun siyasət və prosedurlarına riayətin təmin edilməsinə xidmət edən hallarda, ATU əməkdaşı və ya əlaqəli şəxsin verdiyi əsaslı göstəriş və ya xahişə əməl etmək.

**Öhdəlik 4: Qanunauyğun davranış sərgiləmək**

- ATU icmasının üzvləri olaraq təhsilalanlar daim qanunlara uyğun davranmalıdırlar. Qanunsuz davranışlara – lakin bunlarla məhdudlaşmamaq şərtilə – qadağan olunmuş silah sursatın (o cümlədən soyuq (kəsici-deşiçi alətlər) və odlu silah, partlayıcı maddələr), narkotik-psixotrop maddələrin və spirtli içkilərin saxlanılması, istifadəsi və yayılması, dələduzluq, cinsi xarakterli qeyri-etik davranış, qanuna zidd pozuntular və müəllif hüquqları ilə qorunan materialların qanunsuz şəkildə yüklənməsi daxildir.
- Əcnəbi və vətəndaşlığı olmayan təhsilalan miqrasiya qanunvericiliyinin tələblərini yerinə yetirməli, o cümlədən Universitetə qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində Azərbaycan Respublikasının ərazisində yaşamaq üçün icazənin verildiyini təsdiq edən sənədin surətini Universitetə təqdim etməlidir.

Universitetdəki əşyalara, qapı, pəncərə, divar və digər yerlərə ideoloji və ya siyasi xarakterli yazılar yazmaq, şəkil, emblem və s. yapışdırmaq qadağandır.

"Bilməmək məsuliyyətdən azad etmir" qaydasını bilmək.

**Öhdəlik 5: Universitet resurslarından məsuliyyətli və məqsədəuyğun şəkildə istifadə etmək və onlara qayğı ilə yanaşmaq**

- Universitetin bütün resurslarından məsuliyyətli və məqsədəuyğun şəkildə istifadə etmək və onlara qayğı ilə yanaşmaq, bu resursların ATU icmasının bütün üzvləri arasında paylaşılmalı olduğunu nəzərə almaq;
- Bu öhdəliyə Universitetin binaları, avadanlıqları və ərazisi, incəsənət kolleksiyası, kitabxanası (o cümlədən Universitetin Kitabxana fondu), informasiya və kommunikasiya texnologiyaları resursları, eləcə də müxtəlif kontekstlərdə həm kampus daxilində, həm də kənarda keçirilən fəaliyyətlər üçün nəzərdə tutulan məkanlar (məsələn klinikalar, kənar klinik bazalar, yataqxanalar və s.) daxildir. Bu fəaliyyətlərə onlayn dərslər, klinik və ya istehsalat təcrübələri, sahə təcrübələri və digər praktiki məşğələlər aiddir.
- Bu öhdəliyə, həmçinin, Universitetin resurslarından şəxsi mənfəət, üçüncü tərəfin

maraqları və ya hər hansı özəl biznes və kommersiya məqsədləri üçün əvvəlcədən yazılı icazə olmadan istifadə etməmək də daxildir.

- ATU-da təhsil alan yerli təhsilalanlarda təhsil kartı, əcnəbi təhsilalanlarda tələbə vəsiqəsini təhlükəsiz şəkildə qorumaq, digər şəxsə verməmək, şifrəni və şəxsi məlumatları heç bir başqa şəxsə açıqlamamaq.

**Öhdəlik 6: Universitetin nüfuzunu və ictimai etibarını qorumaq**

- Universiteti təmsil etdikləri hallarda, onun nüfuzunu və ictimai etibarını qoruyan və heç bir şəkildə zərər gətirməyən şəkildə davranmaq.
  Bu öhdəliyə uyğun davranış sərgiləmək, müvafiq akademik standartlara və protokollara, etik normalara riayət etmək, eləcə də Universiteti təmsil etdikləri istənilən şəraitdə o cümlədən xarici ölkədə olan universitetdə ATU tərəfindən təşkil olunmuş mübadilə proqramında iştirak zamanı, iş və ya klinik təcrübədə, sahə araşdırmalarında və digər praktiki fəaliyyətlərdə, həmçinin ora gedib-gəlmə prosesində qanunsuz hərəkətlərə yol verməmək daxildir.
- Universitetin işguzar nüfuzuna xələl gətirməmək, o cümlədən kütləvi informasiya vasitələrində və İnternet şəbəkəsində Universitetin nüfuzuna xələl gətirən məlumatlar yaymamaq.
- Universitetə aid olan hər hansı bir sənəddə imzanın saxtalaşdırılmasına yol verməmək.
- Universitetin adı, nüfuzu və loqosundan məsuliyyətli şəkildə və yalnız əvvəlcədən alınmış yazılı icazə əsasında istifadə etmək.
- Universitetdə qismən və ya tam şəkildə həyata keçirilmiş bütün tədqiqatlarda (məqalələr, qrantlar, patentlər və s.) ATU-nun adını göstərmək.
  Bu o deməkdir ki, Universitetin adını, nüfuzunu, loqosunu və ya onlara bənzər hər hansı simvolu şəxsi maraqlar, üçüncü tərəfin mənfəəti, özəl biznes və ya kommersiya məqsədləri üçün əvvəlcədən yazılı icazə olmadan istifadə etmək və ya çoxaltmaq qadağandır.

**Öhdəlik 7: Klinik mühitlər üçün müəyyən edilmiş geyim qaydalarına riayət etmək**

Davranış Kodeksində göstərildiyi kimi, biz tibb sahəsində fəaliyyətimizdə ən yüksək peşəkarlıq standartlarına riayət etmək məsuliyyətini daşıyırıq və bu məsuliyyət pasiyentlər, onların ailə üzvləri və Standartlaşdırılmış Pasiyentlərlə bütün ünsiyyət formalarına şamil olunur.

Təhsilalanlardan həm dərs otağında, həm də klinik şəraitdə pasiyentlərlə və Standartlaşdırılmış Pasiyentlərlə təmas zamanı peşəkar görünüş nümayiş etdirmələri gözlənilir və aşağıda təqdim olunan geyim qaydalarına əməl etmələri tələb olunur.

Uyğun və səliqəli xarici görünüş pasiyentlərə hörmət və öz işinə peşəkar yanaşmanı ifadə edir, bu isə bəzən şəxsi narahatlıqlara baxmayaraq pasiyentlərin ehtiyaclarını önə çəkməyi tələb edir.

**Ümumi Tələblər**

| Bənd | Tələb |
|---|---|
| Şəxsiyyət | Təhsilalanlar adlarını və statuslarını göstərən, Tibb Universiteti tərəfindən təsdiqlənmiş və aydın şəkildə görünən ad nişanı taxmalıdırlar.<br>Uşaqlarla və yeniyetmələrlə çalışan təhsilalanlar, baxım göstərilən yaş qrupuna uyğun əlavə ad nişanı da taxa bilərlər.<br>Fotoşəkilli şəxsiyyət vəsiqəsi ad nişanına əlavə olaraq daşınmalı və lazım gəldikdə təqdim edilməlidir; bu vəsiqə təhsilalanın üzərində və ya asanlıqla təqdim oluna biləcək şəkildə hər zaman yanında olmalıdır. |
| Boyunluq lent | Təhsilalanlar onların ATU icmasının üzvü olduğunu göstərən boyunluq lent taxmalıdırlar.<br>Boyunluqlara heç bir nişan və ya bərkidici (maqnitli və ya yapışqan tipli) aksesuarlar əlavə edilməməlidir. Boyunluq lentlər təmiz saxlanmalı və görünüşcə çirkləndiyi halda dərhal yenisi ilə əvəz olunmalıdır.<br>Əgər klinik yardım göstərilirsə, boyunluq lent hərəkətə mane olmamalı və gigiyenik təhlükəsizliyin təmin edilməsi üçün görünməyən şəkildə yerləşdirilməli, ideal halda isə cibdə saxlanılmalıdır. |
| Şəxsi gigiyena | Bütün təhsilalanlar şəxsi gigiyena və xarici görünüşlərinə yüksək səviyyədə diqqət yetirməlidirlər. Geyimlər səliqəli, təmiz və yaxşı vəziyyətdə olmalı, zədələnmiş və ya baxımsız olmamalıdır. Xalat ancaq klinik, fundamental və laboratoriyanı əhatə edən fənn, təcrübə şəraitində geyinilməlidir. Nəzəri kafedralarda xalatın geyinilməsi tələb olunmur. Kafedranın yerləşdiyi binadan, klinik bazadan kənarda, həmçinin kampusun həyətində xalat geyinmək qadağandır. |
| Baş örtüyü | Müxtəlif dinlər çərçivəsində klinik şəraitə uyğun baş örtüyü taxılması (türban, kippo, xristian örtükləri, hicab) dini baxımdan dəstəklənir.<br>Baş örtükləri çiyin uzunluğunda olmalı, birbaşa klinik yardım zamanı şərflər sərbəst sallanmış vəziyyətdə olmamalıdır.<br>Tam üzü örtən baş örtüklərin istifadəsinə icazə verilmir. Bu tələb təhsilalanların asanlıqla identifikasiya olunmasını təmin etmək, həmçinin pasiyentlər, ziyarətçilər və həmkarlarla effektiv ünsiyyət və qarşılıqlı etimadı gücləndirmək məqsədi daşıyır.<br>Klinik mühitdə çalışan təhsilalanlar bu örtükləri hər gün yumalı, çirkləndiyi təqdirdə dərhal dəyişdirməlidirlər. |
| Döymələr | Hər hansı bir pasiyent üçün uyğun olmayan və ya təhqiramiz hesab olunan döymələr əməkdaş və təhsilalan tərəfindən mütləq örtülməlidir. |

| | |
|---|---|
| Zinət əşyaları (bəzək aksesuarlar) | Təhsilalanlar istifadə etdikləri zinət əşyalarının (bəzək aksessuarları) nə özləri, nə də ətrafdakı şəxslər üçün təhlükə yaratmamasını təmin etməlidirlər.<br>Zinət əşyaları (bəzək aksessuarları) taxıldıqda, onlar sadə və nəzərə çarpmayan olmalı, bədən pirsinqləri isə minimum səviyyədə saxlanmalı və diqqət çəkməməlidir.<br>Klinik sahələrdə qol saatı taxılmasına icazə verilmir. Üzük taxıldığı halda, bu yalnız nikah (qaşsız) üzüklə məhdudlaşdırılmalıdır.<br>Qalstuk və ya boyunbağı taxıldıqda, birbaşa pasiyentə yardım zamanı onunla təmasdan yayınmaq üçün mütləq şəkildə geyim altına salınmalıdır.<br>Medic-alert (tibbi xəbərdarlıq) zinət əşyalarının (bəzək aksessuarlar) taxılmasına icazə verilir; lakin klinik və ya birbaşa pasiyentlə təmasda olan şəxslər qolbaq taxmamalıdırlar. |

**Geyimlə Bağlı Tələblər**

Təhsilalanlar geyimlərinin hər zaman təmiz, səliqəli və yaxşı vəziyyətdə olmasına diqqət yetirməlidirlər; Bu, peşəkarlıq standartının qorunması baxımından vacibdir. Geyimlərdən siqaret, elektron siqaret və/və ya bədən qoxusu ilə əlaqəli xoşagəlməz iy gəlməməlidir. Kəskin qoxulu ətirlərdən istifadə olunmamalıdır.
Bütün təhsilalanlar geyim seçimində digər əməkdaşların, pasiyentlərin, onların müşayiətçilərinin və ziyarətçilərin sosial, mədəni, müxtəliflik və bərabərliklə bağlı həssaslıqlarını nəzərə almalıdırlar.

| Bənd | Tələb |
|---|---|
| Ayaqqabı | Ayaqqabı seçimi mühitin xüsusiyyətlərinə uyğun olmalıdır.<br>Təhsilalanların özlərini qoruması üçün bağlı burunlu və alçaq dabanlı ayaqqabılar geyinilməlidir.<br>Yumşaq altlıqlı ayaqqabılar isə stasionar (palata) sahələrdə səs-küyün minimuma endirilməsi məqsədilə tövsiyə olunur. |
| Stetoskoplar | Stetoskoplardan yalnız pasiyentin müayinəsi zamanı istifadə edildikdə boyunda saxlanılmasına icazə verilir, digər hallarda boyunda daşınmamalıdır. |
| Saç | Klinik şəraitdə işləyərkən çənədən aşağı sallanan uzun saçlar yığılmalıdır.<br>Saç bağlayıcıları ölçüsünə və formasına görə sadə və nəzərəçarpmaz olmalıdır.<br>Yığılmış saçın sərbəst şəkildə sallanaraq hərəkət etməsi təhlükəsizlik riski yaratdığı üçün yol verilməzdir. |
| Üz tükü və dırnaqlar | Üz tükləri qırxılmalı, yaxud səliqəli şəkildə qısa formaya salınmalıdır. |

| | |
|---|---|
| | Dırnaqlar qısa kəsilməli və yalnız neytral rəngli dırnaq boyası istifadə edilməlidir. |

| **Tibb formasından kənar geyim nümunəsi** | **Tələb** |
|---|---|
| Təhsilalanlar üçün y**olverilən** geyim nümunələri | Polo köynək, köynək, sviter, qalstuk (istəyə bağlı), pencək, klassik üslubda ölçüsünə uyğun tikilmiş şalvar, səliqəli kardiqan.<br>Ətək və don (uzunluğu dizə qədər olmalıdır).<br>Rəsmi üslubda bağlanan bot və ya ayaqqabılar. Xarici görünüşü səliqəli olmaq şərti ilə gözə çarpmayan rəngdə olan idman tərzli ayaqqabılar.<br>Daban hündürlüyü 6 sm-dən artıq olmayan ayaqqabı, bot və çəkmələr. |
| Təhsilalanlar üçün y**olverilməz** geyim nümunələri | Slim və karqo şalvarlar, hudilər, idman geyimləri, şortlar, kamuflyaj naxışlı geyimlər, mini ətəklər və mini donlar.<br>Çimərlik üçün nəzərdə tutulmuş geyimlər, nazik ipli çiyinbağlı don və köynəklər, çiyinləri açıq geyimlər, boyundan bağlanan və kürəyi açıq bluzlar.<br>Sinə, qarın, bel və ya bud nahiyəsini həddindən artıq açıq şəkildə göstərən hər cür geyim.<br>Böyük loqotiplər, ticarət nişanları, siyasi, ideoloji və s. yazılarla diqqətçəkən geyimlər.<br>Çimərlik ayaqqabıları, iti dabanlı ayaqqabılar, professional idman ayaqqabıları, təhsilalanların özlərini qoruması üçün açıq burunlu və hündür dabanlı ayaqqabılar. |
| Fərdi mühafizə vasitələri | Bundan əlavə, klinik sahələrə daxil olarkən “dirsəklərdən aşağı hissə açıq olmalıdır” qaydasına mütləq riayət edilməlidir.<br>Təhlükəsizlik qaydalarının tələblərinə riayət edilməlidir. |

Yuxarıda göstərilən qaydalara əlavə olaraq, təhsilalanlar rotasiya dövründə ATU klinikalarının bütün daxili qaydalarına, eləcə də Universitetin tərəfdaş müəssisələrinin siyasət və prosedurlarına tam şəkildə riayət etməlidirlər.
Əksər hallarda, dərs və ya mühazirə zamanı geyinilən gündəlik geyimlər klinik şərait üçün uyğun hesab edilmir.
Universitetin tədris binalarında üst geyim (palto, kurtka) və papaqda (kepkada) gəzmək qadağandır.
Nəzəri kafedralarda xalat geyinilməsi tələb olunmur.
Pasiyentlərə tibbi xidmət göstərən şəxslərin xarici görünüşü ilə bağlı həssaslıq səviyyəsi və gözləntiləri fərqli ola bilər. Bu baxımdan, təhlükəsiz və peşəkar yanaşma kimi, daha mühafizəkar geyim tərzini seçmək tövsiyə olunur; məsələn, əksər insanların uyğun hesab edəcəyi geyimlərə üstünlük verilməlidir.
Klinik mühitlərdə adət və gözləntilər dəyişə bilər. Digər tibb işçilərinin geyiminə diqqət yetirmək, həmin mühitdə qonaq olduğunuzu nəzərə almaq və uyğunluqla bağlı tərəddüd etdiyiniz halda mütləq soruşmaq tövsiyə olunur.
Təhsilalanlar ATU loqosu olan ağ xalatı universitetdənkənar mühitlərdə geyindikdə, bu, təşkilatı rəsmi şəkildə təmsil etdikləri təəssüratını yarada biləcəyindən, bu məsələdə xüsusi həssaslıq göstərməlidirlər.

## 6. Hüquqi və Normativ Çərçivə

Bu Kodeks, ayrı-seçkiliyin və təzyiqlərin qarşısını almağa yönəlmiş qanunvericilik də daxil olmaqla, qüvvədə olan dövlət qanunvericiliyinə uyğun olaraq tənzimlənir və həmin hüquqi çərçivə daxilində fəaliyyət göstərir.

Aşağıdakı tələblər və ya qaydalar bəzi təhsilalanlara da şamil oluna bilər:

- Fakültə və ya kafedra səviyyəsində müəyyən edilmiş standartlar, prosedurlar və tələblər, məsələn, laboratoriyalarda tətbiq olunan sağlamlıq və təhlükəsizlik qaydaları.
- Bu Təhsilalanların Davranış Kodeksində bütün mümkün hallar və tətbiq edilə bilən siyasətlərin ayrıca qeyd edilməsi mümkün deyil. Əgər bu sənəddə birbaşa göstərilməmiş vəziyyət və ya hal meydana çıxarsa, şəxslərdən bu Kodeksin əsas prinsiplərinə uyğun şəkildə davranmaları gözlənilir.
- Bu Davranış Kodeksi gələcəkdə yarana biləcək ölkə və universitetdaxili normativ hüquqi sənədlərdən irəli gələn tələblərə riayət edilməsini tələb edir.

## 7. Digər məsələlər

Universitet bu Davranış Kodeksinin əhatə dairəsindən kənarda olsa belə, ciddi xarakter daşıdığı qənaətinə gəldiyi hər hansı bir iddia edilən hərəkət, davranış, fəaliyyət və ya hərəkətsizliyi araşdırmaq hüququnu özündə saxlayır. Bundan əlavə, zəruri hallarda, təhsilalanın davranışında korreksiyaedici tədbirlər, əsaslandırılmış göstərişlər verə və müvafiq dəstək xidmətlərinə yönləndirmələr həyata keçirə bilər.

## 8. Təhsilalanların şikayətləri

Təhsilalanlar tərəfindən bu Kodeksin pozulmasına dair iddialar, akademik və ya qeyri-akademik xarakter nizam-intizam pozma hallarına dair şikayətlər “Şikayətlərin idarə edilməsi və araşdırılması Proseduru”na uyğun şəkildə həll olunur.
Tərbiyə işləri üzrə prorektor, ATU təhsilalanlarının “Şikayətlərin idarə edilməsi və araşdırılması Proseduru” icrasına cavabdehdir.
Hər bir təhsilalan və ya universitet əməkdaşı, Universitetin öhdəliklərinin hər hansı bir aspekti ilə bağlı şikayət etmək və ya Davranış Kodeksinin pozulması ilə bağlı iddia irəli sürmək hüququna malikdir. Bu cür şikayətlər və iddialar Tərbiyə işləri üzrə prorektora, həmçinin ATU İntizam Komissiyasına “Şikayətlərin idarə edilməsi və araşdırılması Proseduru”na uyğun olaraq təqdim edilməlidir.

**9. Tədris və icra intizamına əməl edilməsinə görə fərqlənmiş təhsilalanların mükafatlandırılması**

Təhsildə olan nailiyyətlərinə, elmi-tədqiqat işində və universitetin ictimai həyatında fəal iştirakına görə təhsilalanlar üçün aşağıdakı həvəsləndirmə tədbirləri müəyyən edilir:
-təşəkkür elan edilməsi;
-fəxri fərmanla təltif edilməsi;
-pul və ya qiymətli hədiyyə verilməsi;
-mükafat verilməsi.
Həvəsləndirmə tədbirləri rektorun əmri ilə elan edilir və təhsilalanların qrupunun (fakültənin) yığıncağında nəzərə çatdırılır.

## Təhsilalanların Akademik Dürüstlük Qaydaları

1. Mündəricat
2. Ümumi müddəalar
3. Əsas terminlər
4. Akademik dürüstlük prinsipləri
5. Vicdanlı akademik təcrübə
6. Akademik dürüstlüyün pozulmasının növləri və səviyyələri
7. Akademik dürüstlük standartlarının pozulmasına görə məsuliyyət formaları
8. Akademik vicdansızlıq hallarına baxılması proseduru
9. Akademik dürüstlük prinsiplərinə riayət edilməsinə görə təhsilalanların məsuliyyəti
10. Akademik dürüstlük prinsiplərinin pozulmasına görə əməkdaşların, müəllimlərin və elmi işçilərin məsuliyyəti
11. Yekun müddəalar
12. Əlavə. ATU-da elmi istinad qaydaları

## 1 Ümumi müddəalar

### 1.1. Tətbiq sahəsi

Azərbaycan Tibb Universitetində (bundan sonra - Universitet) təhsil alan şəxsin hazırki Akademik Dürüstlük Qaydaları (bundan sonra - Qaydalar) təhsilalanların akademik dürüstlük siyasətinin həyata keçirilməsinin əsas anlayışlarını, formatını, təşkili qaydasını və şərtlərini müəyyən edir.

Hazırki Qaydalar Universitetdə akademik dürüstlüyün təşkili və təmin edilməsi üzrə fəaliyyəti tənzimləyir, akademik dürüstlük siyasətinin həyata keçirilməsinin və akademik vicdansızlığın qarşısının alınmasının əsas mexanizmlərini özündə əks etdirir.

Hazırki Qaydalar həyata keçirilməsi funksiyaları Universitetin bütün təhsilalanlarının, professor - müəllim heyətinin (bundan sonra PMH) və əməkdaşlarının üzərinə qoyulur.

### 1.2. Normativ istinadlar

Hazırki Qaydalar aşağıdakı normativ sənədlər əsasında hazırlanmışdır:

- "Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu;
- "Elm haqqında" Azərbaycan Respublikası Qanunu;
- ISO 37001:2016 standartı «Korrupsiyaya qarşı mübarizənin menecment sistemləri. Tətbiq üzrə tələblər və təlimat».
- Azərbaycan Tibb Universitetinin Korrupsiyaya qarşı mübarizə siyasəti və digər qüvvədə olan qanunvericilik.

### 1.3. Qaydaların məqsəd və vəzifələri

Hazırki Qaydaların məqsədi Azərbaycan ali tibb təhsilinin dünya standartlarına müvafiq olaraq keyfiyyətini təmin etmək, onun cəlbediciliyini və rəqabət qabiliyyətini artırmaqdır. Təhsilalanlar akademik tapşırıqları vicdanla yerinə yetirməklə təhsil müəssisəsinin fundamental dəyərlərinin vəhdətini dəstəkləyir, eyni zamanda yeni və innovativ ideyaların formalaşdırılması vasitəsilə bilik və mədəniyyətin lazımi səviyyədə ötürülməsini təmin edirlər.

Hazırki Qaydaların tətbiq edilməsinin vəzifələri:

- Universitetin təhsilalanları arasında akademik dürüstlüyün pozulması hallarının qarşısının alınması və aradan qaldırılması;
- Universitetin ISO 37001 beynəlxalq standartının tələblərinə əsaslanan korrupsiyaya qarşı mübarizə siyasətinə riayət edilməsi;
- təhsilalanlar və professor–müəllim heyəti arasında plagiata qarşı dözümsüz münasibətin formalaşdırılması;
- təhsilalanlar və Universitetin əməkdaşları arasında akademik dürüstlüyün tətbiqi üzrə davamlı məqsədyönlü işin aparılması.

Qaydalar universitetin mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasına və təhsil mühitində imicinin yüksəldilməsinə yönəlmiş strategiyasını dəstəkləmək məqsədi ilə tətbiq edilir və tədris prosesində akademik dürüstlük prinsiplərini, bu proses iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir, həmçinin akademik vicdansızlığın növlərini və onlara yol verildiyi halda tədbirlərin görülməsi qaydasını müəyyən edir.

## 2. Əsas terminlər

Hazırki Qaydalarda aşağıdakı terminlər istifadə edilmişdir:

**Akademik dürüstlük -** təhsil prosesində təhsilalanların və müəllimlərin şəxsi dürüstlüyü və öyrənmə məsuliyyətini inkişaf etdirən davranış dəyərlərinin və prinsiplərinin toplusu.

**Akademik vicdansızlıq -** elmi və təhsil fəaliyyəti ilə bağlı istənilən dələduzluq və ya aldatma növü.

**Antikorrupsiya siyasəti** - rəhbərlik tərəfindən rəsmi şəkildə tərtib edilmiş korrupsiya və rüşvətxorluğa qarşı mübarizə hissəsində təşkilatın niyyətləri və inkişaf istiqamətləri;

**Təhsilalan** - təhsil proqramını mənimsəyən şəxs. Təhsilalanlara aid edilir: dinləyicilər, tələbələr, rezidentlər, magistrantlar, doktorantlar və əlavə təhsil alanlar.

3. **Akademik dürüstlük prinsipləri:**

Tədris prosesində təhsilalanların əsas akademik dürüstlük prinsipləri:

**vicdanlılıq** - təhsilalanlar tərəfindən qiymətləndirilən və qiymətləndirilməyən işlərin dürüst, layiqli yerinə yetirilməsi: müəllifin və onun hüquqi varislərinin hüquqlarının müdafiəsinin həyata keçirilməsi, müəllifliyin tanınması və qiymətləndirilən işlərdə başqasının nitqinin, fikirlərinin düzgün ötürülməsi və məlumat mənbələrinin göstərilməsi yolu ilə və müəlliflik hüququ obyekti olan əsərlərin mühafizəsi;

**açıqlıq -** şəffaflıq, qarşılıqlı etimad, təhsilalanlar və müəllimlər arasında açıq məlumat və fikir mübadiləsi;

**təhsilalanların hüquq və azadlıqlarına hörmət -** qanuna zidd olmayan təhsilalanların fikir və ideyalarını sərbəst ifadə etməyinə şərait yaratmaq;

**bərabərlik -** hər bir təhsilalanın akademik dürüstlük qaydalarına riayət etmək vəzifəsi və onların pozulmasına görə bərabər məsuliyyəti;

**düzlük** - istənilən vəziyyətdə saxtakarlığa, yalan və sənədlərin saxtalaşdırılmasına yol verməmək;

**etibarlılıq –** həqiqətə uyğun olan məlumatı təqdim etmək, faktlara, empirik məlumatlara və obyektiv mülahizələrə əsaslanan elmi açıqlamalar vermək;

**məsuliyyət** - akademik dürüstlük siyasətinə əməl etmək, akademik dürüstlüyün pozulmasına səbəb ola biləcək vəziyyətlərdən yayınmaq;

**obyektivlik** - qərəzli və ya subyektiv münasibət olmadan obyektiv məlumatlara əsaslanan qərar qəbul etmək;

**ədalət** - Universitetin akademik ictimaiyyəti üzvlərinin hüquq və vəzifələrinə ciddi əməl olunmasının təmin edilməsi, habelə akademik dürüstlüyün pozulması hallarına ədalətli baxılması;

**akademik dürüstlüyün pozulmasına dözümsüzlük -** akademik dürüstlüyün hər bir pozuntusunun qeydə alınması və yoxlanılması və pozanlar barəsində Qaydalara müvafiq olaraq tədbirlər görülməsi;

**Universitet aşağıdakı akademik dürüstlük prinsiplərinə riayət edir:**

**Prinsip № 1.** Akademik dürüstlük hər bir təhsilalan, onun təhsil prosesi və tədqiqatları üçün əsas dəyərdir.

**Prinsip № 2.** Hər bir təhsilalanın akademik dürüstlük sitat gətirmə qaydaları və davranışın aydın, ədalətli və obyektiv standartlarına əməl olunmasını təmin edir.

**Prinsip № 3.** Hər bir təhsilalan Akademik və / və ya tədqiqat məqsədləri üçün xarakterindən, məzmunundan və həcmindən asılı olmayaraq təqdim olunan bütün yazılı işlərin icbari plagiat yoxlamasının təmin edilməsinə görə məsuliyyət daşıyır.

**Prinsip № 4.** Akademik dürüstlük prinsiplərinin və standartlarının pozulmasına görə təhsilalanın məsuliyyətini təmin edilir.

**Prinsip № 5.** Təlim nəticələrinin ədalətli və obyektiv qiymətləndirilməsi sistemi çərçivəsində təhsilalanlara daha yüksək tələblər qoyulur.

**Prinsip № 6.** Universitetin hər bir əməkdaşı kadrlar hazırlığının diplom ilə təsdiq edilmiş

keyfiyyətinə görə məsuliyyət daşıyır.

**Prinsip № 7.** Universitetin hər bir əməkdaşı akademik dürüstlük, qarşılıqlı hörmət və ədalət prinsipləri və standartlarını aşılayan mentor kimi müəllimin yüksək məsuliyyəti təmin edilir.

**Prinsip № 8.** Akademik dürüstlüyün təşviqi və qorunması universitetin bütün təhsilalanların və əməkdaşların qarşılıqlı səylərinin nəticəsidir.

**Prinsip № 9.** Hər kəs onun üzərinə qoyulmuş öhdəlikləri, o cümlədən fəaliyyətin əsas prinsiplərini vicdanla yerinə yetirmək öhdəliyi götürür.

## 4. Vicdanlı akademik təcrübə

Müəllim heyəti və universitet rəhbərliyi təhsilalanların müvafiq akademik dərəcəsini müvəffəqiyyətlə almaları üçün şəraitin və yardımın təmin olunmasına görə məsuliyyət daşıyırlar. Müəllim heyəti və universitet rəhbərliyi akademik dürüstlük prinsiplərinin pozulduğu hallarda ciddi intizam tənbehinin tətbiq edlməsini nəzərdə tutan məsuliyyət daşıyacaq.

Təqsirin müəyyən edildiyi zaman təhsilalanlar dinləmə proseduru yolu ilə ciddi intizam tədbirindən şikayət edə bilərlər.

## 5. Akademik dürüstlüyün pozulmasının növləri və səviyyələri

**Plagiat** başqa bir şəxsin işinin qəsdən və ya ehtiyatsızlıqdan mənimsənilməsidir ki, bu da təhsilalanın öz işi kimi təqdim edilən və əslində başqa şəxs tərəfindən tamamilə və ya qismən yerinə yetirilmiş tapşırığı əhatə edir. Plagiata həmçinin mənbələri lazımi şəkildə göstərmədən başqa bir şəxsin işini, ideyasını, bəyanatını və ya ifadəsini təqdim etmək də aid edilir.

Plagiat vardır, əgər təhsilalan:

- başqa şəxsin yazılı işindən bir və ya bir neçə cümləni lazımi şəkildə sitat gətirmədən birbaşa köçürür. Bu qayda internetdən və ya digər elektron mənbələrdən materialın surətinin çıxarılmasına da aiddir;
- sözləri dəyişdirir, lakin ilkin mənbəyə istinad etmədən cümlənin strukturunu köçürür və ya mənbəyə istinad etmədən bir və ya bir neçə oxşar mənalı abzasları yenidən ifadə edir, yaxud mənbəyə istinad etmədən və / və ya müəllifin razılığı olmadan qrafika, şəkil, çertyoj, sxemlər və ya digər video / audio materiallardan istifadə edir;
- istənilən tədris tapşırığında yalan və ya dəyişdirilmiş məlumat təqdim edir, bura eksperiment üçün məlumatların uydurulması, məlumatların dəyişdirilməsi, mövcud olmayan məqalələrə, uydurma mənbələrə istinadlar və s. daxil ola bilər;
- tam və ya qismən başqa bir təhsilalan tərəfindən yerinə yetirilmiş işi təhvil verir və onu öz işi kimi təqdim edir;
- işlərin yazılması üzrə xüsusi servis xidmətlərindən istifadə edir, işi yazmaq üçün digər təhsilalanın xidmətlərindən istifadə edir və ya xarici dildən tərcümədən istifadə edir və materialı öz orijinal əsəri kimi təqdim edir.

**Avtoplagiat** - mənbəni göstərmədən özünün əvvəllər dərc edilmiş materialından istifadə etmək; bu, öz işindən geniş sitatdır. Mətnin təkrar istifadəsi nəşrə təqdim edilmiş əlyazmalarda və ya dərc edilmiş müxtəlif növ məqalələrdə, məsələn, tədqiqat və ya icmal məqalələrində baş verə bilər. Əgər iki və ya daha çox məqalə arasında əhəmiyyətli uyğunluq aşkar edilərsə, bu uyğunluğun səbəbi aydınlaşdırılmalı və / və ya müvafiq tədbirlər görülməlidir. Birincisi, mətnin təkrar istifadəsinin həcmi vacibdir. Bir neçə cümlənin

təkrarlanması bütöv abzasların surətini çıxarmaqdan açıq şəkildə fərqlənir, bu zaman metodlar bölməsində təkrarlanmanın böyük həcmi daha çox əsaslandırılmışdır, nəinki nəticələrin müzakirəsi zamanı. Əgər avtoplagiat cüzidirsə, müəllifdən mətni yenidən yazmağı və çatışmazlıq olduqda ilkin mənbəyə istinadlar göstərməsini xahiş etmək lazımdır. Avtoplagiatın əhəmiyyətli payı nəşrdən imtina üçün səbəb olmalıdır.

**Köçürmə** Universitetin, eləcə də bütün cəmiyyətin imicinə xələl gətirir, şəxsiyyətin mənəvi və əxlaqi dəyərlərini məhv edir.

Aşağıdakı hallarda köçürmə baş verir, əgər təhsilalan:

- imtahan materiallarını əldə edir və ya onlara icazəsiz giriş əldə edir;
- imtahan zamanı müəllimin icazəsi olmadan cavablar yazılmış vərəqlərdən, mobil telefonlardan, kitablardan, kalkulyatorlardan və ya digər materiallardan / cihazlardan istifadə edir;
- icazəli və ya icazəsiz başqa təhsilalanların imtahan vərəqindən köçürür və ya başqa təhsilalana öz imtahan vərəqindən köçürməyə icazə verir;
- tapşırıqları yerinə yetirərkən digər təhsilalanların işinə mane olur və ya onların işinə müdaxilə edir;
- imtahanın verilməsi və ya yazılı tapşırığın yerinə yetirilməsi üçün vaxtın uzadılmasını xahiş etmək üçün yalan səbəb göstərir;
- imtahan vaxtı bitdikdən sonra yazı yazmağa davam edir;
- imtahan zamanı söhbət edir;
- başqa təhsilalandan onun əvəzinə imtahan tapşırığını və ya testi yerinə yetirməsini xahiş edir;
- imtahanda və ya istənilən qiymətləndirilən tapşırıqda təhsilalana ədalətsiz üstünlük verən istənilən digər hərəkəti edir;
- yuxarıda göstərilən hərəkətlərdən istənilən birinin həyata keçirilməsinə kömək edir və səbəb olur və ya bu hərəkətləri təşkil edir.

**Sənədlərin saxtalaşdırılması** təhsilalan haqqında istənilən məlumatın şüurlu surətdə təhrifinə gətirib çıxaran akademik saxtakarlığın bir formasıdır.

Sənədlərin saxtalaşdırılması baş verir, əgər təhsilalan:

- saxta ərizə, maliyyə yardımı haqqında ərizə və ya Universitetə təqdim edilmiş istənilən digər rəsmi sənədləri təqdim edir;
- buraxılmış dərslərə, imtahanlara, vaxında görülməyən işə və ya digər səbəblərə görə saxta və ya yalan tibbi arayış təqdim edir;
- saxta və ya qanunsuz dəyişdirilmiş və yaxud müddəti bitmiş , eləcədə digər şəxsə məxsus təhsil kartından və əcnəbilər üçün tələbə vəsiqəsindən istifadə edir;
- davamiyyət jurnalını və ya digər akademik sənədləri saxtalaşdırır.

**Ədalətsiz üstünlük əldə etmək.**

Aşağıdakı hallarda pozuntu baş verir:

- imtahan materiallarının oğurlanması, surətinin çıxarılması, yayılması və ya başqa şəkildə bu materialların müəllimin özü tərəfindən açıqlanmazdan əvvəl onlara giriş əldə edilməsi;
- digər təhsilalanlar tərəfindən istifadə edilməsinin qarşısını almaq üçün kitabxana materiallarının oğurlanması, məhv edilməsi, zədələnməsi və ya gizlədilməsi;
- akademik tapşırığı yerinə yetirmək üçün icazə almadan digər şəxslərdən kömək alınması;

- əvvəllər alınmış imtahan materiallarının imtahan başa çatdıqdan sonra üzərində müəllimə qaytarılmalı olduğu aydın şəkildə göstərildiyi halda saxlanılması, malik olması, istifadə edilməsi və ya yayılması;
- digər təhsilalanların tədris işinə qəsdən mane olunması və ya müdaxilə edilməsi;
- digər təhsilalanların akademik işləri üzərində ədalətsiz akademik üstünlük qazanmaq və ya əldə etmək məqsədi ilə həyata keçirilən digər hərəkətlər;
- digər təhsilalanların akademik göstəricilərini azaltmaq məqsədi ilə digər təhsilalanların işinə zərər vermək, məhv etmək və ya başqa şəkildə zədə yetirmək.

**Təkrar təhvil vermək** – müəllimin razılığı olmadan eyni işi bir dəfədən çox qiymətləndirməyə təqdim etmək.

**Özünü başqa bir şəxsin əvəzinə təqdim edərək (yaxud özünü başqa bir şəxslə əvəz edərək)** akademik qazanc əldə etmək məqsədilə imtahanlar, testlər, diaqnostik testlər, laboratoriya işlərini və ya digər tapşırıqları yerinə yetirmək.

**İcazəsiz giriş -** təhsilalan aldatma yolu ilə, o cümlədən haker hərəkətlərindən istifadə etməklə akademik fayda əldə etmək üçün məxfi məlumatlara – imtahan materialları, test sualları və digər materiallara giriş əldə etdikdə baş verir.

**Məlumatların icazəsiz yayılması**- məxfi məlumatları əvvəlcədən razılıq olmadan dərc etmək, yaymaq və ya üçüncü şəxslərə açıqlamaq akademik dürüstlük qaydalarının pozulmasıdır. Məxfi məlumatlara ümumi giriş olmayan şəraitdə toplanmış və saxlanılan akademik məlumatar və sənədlər daxildir.

**Akademik dürüstlük qaydalarının pozulmasına yardımın göstərilməsi** özü-özlüyündə akademik dürüstlük prinsiplərinin pozulması hesab olunur. Məsələn, bu pozuntu o zaman baş verir ki, təhsilalan artıq başqa dərsdə təhvil verilmiş tapşırığı başqa bir təhsilalana verir və ona tapşırığın hissələrini dublikat edib özününkü kimi təqdim etməyə icazə verir.

**Xüsusi icazə olmadan başqa təhsilalanlarla və ya digər şəxslərlə qrup halında işin hazırlanması -** müəllim tərəfindən müstəqil yerinə yetirilməsi tapşırılan müvafiq işi iki nəfərlə, qrup və s. formada yerinə yetirməsi.

Akademik dürüstlüyün pozulması növlərinin hazırki siyahısı tam deyil və əlavələr oluna bilər. Akademik cəhətdən qeyri - münasib davranışa təhsilalana ədalətsiz üstünlük verən və ya başqa təhsilalanın nəticələrinə təsir edən istənilən davranış daxildir.

**Müəllimə və ya məsul şəxsə təhsilalan tərəfindən rüşvət vermək və ya rüşvət verməyə cəhd** - digər təhsilalanların akademik işləri üzərində ədalətsiz akademik üstünlük yaratmaq və ya əldə etmək məqsədi ilə görülən hərəkətlər müqabilində maddi nemətlərin verilməsi.

**6. Təhsilalanların hüquq və vəzifələri:**

**Təhsilalanların hüquqları var:**

- Tədris prosesində öz fikrini sərbəst ifadə etmək;
- Bu Qaydaların pozulmasında əsassız ittihamdan müdafiəyə və sübut təqdim etmək;

**Təhsilalanlarln öhdəlikləri:**

- Bu Qayadlarla tanış olmaq və onun pozulmasının nəticələrini bilmək;
- Akademik dürüstlük normalarına ciddi əməl etmək;
- Başqasının söz və fikirlərini, müəllifin adı, əsərin adı və səhifəsi ilə göstərməklə ifadə etmək;
- Tədqiqat işi, esse, yazılı işlərin sonunda istifadə olunan ədəbiyyat siyahısını göstərmək;

- Etibarlı və dəqiq informasiya mənbələrindən istifadə etmək;
- Öz yerinə yetirdiyi nəzarət işlərini digər tələbələrə verməmək;
- İntellektual mülkiyyətdən istifadə ilə bağlı əsas prinsiplərə hörmət etmək və onlara riayət etmək;
- Hər növ işlərdə – şifahi və yazılı formada, cari və yekun qiymətləndirmədə – etik qaydalara və prinsiplərə əməl etmək, imtahanlarda köçürmələrdən, mobil telefonlardan, elektron informasiya və rabitə vasitələrindən və s. istifadə etməmək;
- Akademik qeyri-dürüstlüyə görə məsuliyyət daşıdığını bilmək və bu Qaydalar çərçivəsində tədbirlərin görülməsinə hazır olmaq.

**7. Universitet əməkdaşlarının, müəllimlərin və elmi işçilərin akademik dürüstlük prinsiplərini pozduqlarına görə məsuliyyət**

PMH, elmi işçilər və universitet əməkdaşları akademik qeyri-dürüstlük hallarını aşkara çıxarmaq və onların qarşısını almaq üçün məsuliyyət daşıyırlar. Tədris prosesinin iştirakçıları bilməlidirlər ki, akademik dürüstlük prinsiplərinin pozulmasına görə mənəvi məsuliyyət daşıyırlar.

PMH, elmi işçilər və universitet əməkdaşları aşağıdakıları yerinə yetirməyə borcludurlar:

- tədris fənlərinin sillabuslarında cari və aralıq qiymətləndirmə formaları, qiymətləndirmə meyarları haqqında məlumat vermək və bu məlumatı təhsilalanlara çatdırmaq;
- etibarlı qiymətləndirmə üsullarından istifadə etmək;
- elektron jurnalı doldurmağa cavabdeh olmaq, cari nəzarət və davamiyyət nəticələrini hər gün daxil etmək;
- imtahanlara hazırlıq məqsədilə təhsilalanların sınaq testlərin (5 test ETS-də), yazılı və şifahi imtahan sualların (cavabsız) siyahısına girişi təmin etmək;
- təhsilalanları onların işlərinin plagiat proqram təminatı vasitəsilə yoxlanıldığını məlumatlandırmaq;
- təhsilalanlara fənn üzrə etibarlı və dəqiq bilik mənbələrinin seçilməsində təlim keçmək və dəstək göstərmək;
- ədəbiyyat siyahısının, istinad və qeyd formalarının, başqasının söz və fikirlərinin düzgün tərtib olunması qaydalarını öyrətmək;
- layihə fəaliyyətlərinin kağız, elektron və rəqəmsal daşıyıcılarda müəlliflərin adları göstərilməklə tərtib olunma üsullarını öyrətmək;
- qiymətləndirmədən öncə təhsilalanlarla akademik dürüstlüyə əməl etməyin vacibliyi barədə izahat işi aparmaq;
- bu Qaydalarda nəzərdə tutulan tələblərin pozulması imkanının qarşısını almaq;
- Qaydalar üzrə hər bir pozuntunun ciddi qeydiyyatını aparmaq;
- universitet rəhbərliyini (rektor, prorektor), fakültə rəhbərliyini (dekan, dekan müavini), valideynləri və ya qanuni nümayəndələri hər bir pozuntu halı barədə məlumatlandırmaq;
- akademik dürüstlük prinsiplərinin öz fəaliyyətlərində tətbiqinə töhfə vermək;
- etikaya və təhsilalanların daimi inkişafına əsaslanan intellektual və mənəvi təhsil üçün şərait yaratmaq;
- Azərbaycan Respublikasında və beynəlxalq səviyyədə müəllif hüquqlarının qorunması üzrə normativ sənədləri öyrənmək;
- akademik dürüstlüyün dəstəklənməsi ilə bağlı seminar və praktiki məşğələlərdə iştirak etmək;
- təhsilalana zəmanət vermək ki, o, Universitetin korrupsiyaya qarşı mübarizə siyasətinin

faktiki və ya ehtimal edilən pozuntuları barədə vicdanla və ya səmimi inamla məlumatladığına görə, yaxud korrupsiya hərəkətlərində iştirakdan imtina etdiyinə görə heç bir təzyiqə, ayrı-seçkiliyə və ya intizam tədbirlərinə məruz qalmayacaq.

**8. Təhsilalanların akademik dürüstlük prinsiplərinə əməl etməyə görə məsuliyyəti**

Universitet icmasının üzvü kimi hər bir təhsilalan aşağıdakı tövsiyələrə riayət etməlidir:

- hər bir şəraitdə dürüst olmaq;
- başqalarına qarşı dürüst davranmaq, nizam-intizamı pozmamaq və digər tələbələr qarşısında köçürmə və ya digər üsullarla ədalətsiz üstünlük əldə etməyə çalışmamaq;
- Universitetin korrupsiyaya qarşı siyasətini və tədris prosesi ilə bağlı daxili normativ sənədləri bilmək;
- akademik pozuntuların qarşısını almaq və onlardan yayınmaq, eləcə də şahidi olduğu pozuntu aktları barədə məlumat vermək;
- plagiatın nə olduğunu bilmək və ondan yayınmaq üçün tədbirlər görmək. Başqasının sözlərindən və ya ideyalarından istifadə etdikdə (hətta onları öz sözlərinizlə ifadə etsəniz belə), mənbəni göstərməlisiniz. Əgər başqasının fikrindən istifadə edib-etmədiyinizə əmin deyilsinizsə, sizə tapşırığı verən müəllimlə məsləhətləşməlisiniz.
- "Bilməmək məsuliyyətdən azad etmir" qaydasını bilmək. Akademik dürüstlük normalarını pozan şəxs intizam məsuliyyəti daşıyır, hətta Universitetdən xaric edilməyə qədər.

**Əlavə**

**ATU-da Elmi İstinad Qaydaları**

Hər bir elmi işin məcburi tərkib hissəsi elmi istinadlardır. Elmi işlərdə istifadə olunan materiallar və ya ayrıca nəticələr götürülmüş mənbələrə, eləcə də işdə araşdırılan problemlərin, məsələlərin və sualların əsaslandığı ideya və nəticələrə istinadlar verilir. Belə istinadlar uyğun mənbələri tapmağa, istinadların düzgünlüyünü yoxlamağa və həmin mənbələr (onların məzmunu, dili, həcmi) haqqında zəruri məlumat əldə etməyə imkan verir.

Elmi işlərdə biblioqrafik istinadların verilməsi mütləqdir və aşağıdakı hallarda tətbiq olunur:

- mətnin fraqmentləri, düsturlar, cədvəllər, illüstrasiyalar sitat kimi verildikdə;
- düsturların, cədvəllərin, illüstrasiyaların və s. birbaşa sitat olmadan götürülməsi zamanı;
- başqasına məxsus mətnin məzmununun parafraz (yenidən ifadə) olunaraq təqdim edilməsi zamanı;
- mətn daxilində digər nəşrlərin məzmununun təhlili aparıldıqda;
- oxucunun müzakirə olunan materialın daha geniş verildiyi digər nəşrlərə yönləndirilməsinin zəruri olduğu hallarda.

İstinadın olmaması müəllif hüquqlarının pozulması hesab olunur, düzgün tərtib edilməmiş istinad isə ciddi səhv kimi qiymətləndirilir. İstifadə olunmuş ədəbiyyat siyahısında göstərilən bütün mənbələrə məqalə mətnində mütləq şəkildə istinad olunmalıdır.

Əgər işin mətnində ədəbiyyat siyahısında olmayan istinad və ya sitatlar yer alıbsa və əksinə, siyahıda göstərilmiş, lakin mətn daxilində istinad verilməmiş mənbələr mövcuddursa, bu ciddi səhv hesab olunur.

Biblioqrafik aparatın qiymətləndirilməsi zamanı istinad edilən mənbələrin keyfiyyətinə xüsusi diqqət yetirilir. Elmi işdə istifadə olunan mənbələrin əsas tələbləri onların nüfuzluluğu və tədqiqat mövzusuna uyğunluğudur. Elmi işlər üçün ən nüfuzlu mənbələr

yeni elmi məqalələr və monoqrafiyalar (xarici olanlar da daxil olmaqla) hesab olunur. Bu mənbələrə istinad edilərkən müəlliflərin elmi səviyyəsinə və məqalənin dərc edildiyi jurnalın nüfuzuna diqqət yetirilməlidir.

**Diqqət yetirin!**

- Eyni material dəfələrlə nəşr edilibsə, ən son nəşrə istinad edilməlidir. Yalnız son nəşrə daxil edilməmiş vacib məlumatlar əvvəlki nəşrlərdə olduqda, o zaman əvvəlki nəşrlərə istinad etməyə icazə verilir.
- Elmi işlərdə dərsliklərə və arayış ədəbiyyatına istinadlar məhdud şəkildə olmalıdır. Populyar nəşrlərə və müəllifi müəyyən olunmayan materiallara istinadlardan çəkinmək tövsiyə olunur, hətta bu materialların mövzuya uyğunluğu olsa belə.

- Biblioqrafik mənbənin keyfiyyəti və nüfuzu onun başlığına, müəllif və nəşr haqqında məlumatlara, yazı üslubuna və mətnin tərtibatına əsasən müəyyən edilə bilər.

- Əgər material ənənəvi nəşrlərdə mövcuddursa, İnternetdə yerləşdirilmiş versiyasına istinad etmək tövsiyə olunmur.
- Elmi işdə biblioqrafik mənbəyə istinad, müəllifin həmin mənbə ilə şəxsən tanış olduğunu və lazım gəldikdə (məsələn, müdafiə zamanı) onun məzmununa dair elmi müzakirə aparmağa hazır olduğunu göstərir.
- Elmi işdə digər müəlliflərin nəzəri müddəaları, ideyaları, sübutları və tədqiqat nəticələri istifadə olunursa, həmin müəlliflərə və mənbələrə istinad verilməlidir.
- Digər müəlliflərə məxsus qrafik materiallar (cədvəllər, sxemlər, şəkillər, fotolar və s.), eləcə də eksperimental məlumatlar (o cümlədən ilkin emal olunmamış materiallar) istifadə edildikdə, istinad mütləqdir!
- Elmi işi yazarkən bəzən çoxsaylı ədəbiyyat mənbələrinə diqqət yönəltmək lazım olur. Əgər hamısına ayrıca istinad vermək mümkün deyilsə, bu hallar mətndə xüsusi qeyd olunur və mövzu üzrə ən yeni və ya ən tanınmış mənbələrə istinad edilir, digər mənbələrin isə müstəqil şəkildə öyrənilməsi tövsiyə olunur.

Elmi işdə digər müəlliflərin əsərlərinə düzgün şəkildə istinad vermək üçün aşağıdakı qayda və tövsiyələrə əməl etmək lazımdır:

1) Digər müəlliflərə istinad edilərkən yalnız soyadı deyil, həm də müəllifin adının baş hərfləri (inisialları) göstərilməlidir. Bu tövsiyə tez-tez nəzərə alınmasa da, təhsilalanların işlərində belə istinadlar vacibdir. Əgər müəllifə ikinci dərəcəli mənbə vasitəsilə istinad edilirsə və orada inisiallar göstərilməyibsə, bu məlumatı həmin mənbənin ədəbiyyat siyahısından və ya digər mənbələrdən (məsələn, internetdən) tapmaq olar.
2) Elmi mətnlərdə müəllifin inisialları soyadından əvvəl yazılır, sonra yox.
3) Müəlliflərə istinad edərkən onların cinsinə diqqət yetirmək və soyadların düzgün hallanmasına riayət etmək lazımdır (bu baxımdan tədris ədəbiyyatlarında da tez-tez səhvlər olur).
4) Sitat gətirərkən müəllifi eyni soyadlı başqa tanınmış bir şəxslə səhv salmamaq və soyadını dəyişmiş və ya təxəllüs götürmüş tədqiqatçını iki dəfə sitat gətirməmək vacibdir.
5) Ən çox səhvlər qadın alimlərin adlarının çəkilməsi zamanı baş verir, çünki onların inisial və soyadlarına görə cinsini müəyyənləşdirmək çətindir.
6) Elmi işlərdə ən çox yayılmış istinad növü dolayı istinaddır, yəni parafraz.

7) Elmi işlər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq qərarları ilə təsdiq edilmiş “Dissertasiyanın tərtibi Qaydası” nın və “Avtoreferatın tərtib Qaydası”nın tələblərinə cavab verməlidir.

**Parafraza** - sitatın (adətən kiçik bir fraqmentin) öz sözlərinizlə sitat mənbəyinə məcburi istinadla ifadə edilməsi. Məlumatı öz sözlərinizlə ifadə edərkən mətnin ilkin mənasının təhrif edilməsinə yol verilməməlidir.
Mənbəyə istinad edilmədən və ya dırnaq işarəsi olmadan mətn hərfi kopyalandıqda plagiat hesab olunur.
Elmi işdə parafrazadan istifadə aşağıdakı hallarda zəruridir:
- orijinal sitatlar birbaşa sitat gətirmək üçün çox həcmlidir;
- eyni vaxtda bir neçə mənbəyə istinad edərkən ümumiləşdirilmiş məlumatları təqdim etmək lazımdır;
- nəzəri konsepsiyanın məzmununu və ya işdə istinad edilən tədqiqatın prosedurunu və nəticələrini qısa şəkildə qeyd etmək lazımdır.
Tələbənin hərfi tərcümənin keyfiyyətinə əmin olmadığı hallarda xarici dildə olan əsərlərə istinad edərkən parafrazadan da istifadə edtmək tövsiyə olunur.
Mötəbər mənbəyə istinad edərək öz arqumentlərinizi dəstəkləmək və ya müəyyən çap işini tənqidi şəkildə təhlil etmək üçün sitatlar gətirilməlidir. Akademik etiket sitat gətirilən mətnin dəqiq ifadə edilməsini tələb edir, çünki sitat gətirilən parçada ən kiçik ixtisar müəllifin ona verdiyi mənanı təhrif edə bilər.

**Sitat gətirmək üçün ümumi tələblər**
1) Sitatın mətni dırnaq arasında verilir və müəllifin yazı xüsusiyyətlərini qorumaqla, mənbədə verildiyi qrammatik formada ifadə olunmalıdır.
2) Sitat tam şəkildə, sitat gətirilən mətn ixtisar olmadan və müəllifin fikirlərini təhrif etmədən olmalıdır.
3) İstinad edərkən hər bir sitat mənbəyə istinadla müşayiət olunmalıdır ki, onun biblioqrafik təsviri ədəbiyyat siyahısına dair tələblərə uyğun olaraq verilir.

**Diqqət yetirin!**
- Paraqraflara sitatla başlamaq və ya bir sitatı dərhal digərinin ardınca yerləşdirmək tövsiyə edilmir.
- Müəllifliyi təsdiqlənməmiş və ya ümumqəbuledilmiş və ya bayağı ifadələri ehtiva edən sitatlardan çəkinməlisiniz.

Belə ki, elmi məqalələr hazırlanarkən ilkin məlumat mənbələrinə (monoqrafiyalar, elmi məqalələr, dissertasiyalar və s.) əsaslanmaq tövsiyə olunur. İkinci dərəcəli mənbələrdən istifadə yalnız tədqiqat problemi ilə tanışlıq və işin əsas konseptual və kateqoriyalı iş üsulunun müəyyənləşdirilməsi mərhələsində əsaslı hesab olunur.

Müəlliflər öz işlərində ikinci dərəcəli mənbələrdən məlumatlara istinad edərkən çox vaxt iki böyük səhvə yol verirlər:
- informasiyanı elə ilkin mənbədə özləri tapmış kimi istinad edirlər (bu halda ikinci dərəcəli məlumat mənbəyinin mövcudluğu gizlədilir və ilkin mənbənin biblioqrafik məlumatları təhsilalanın işində yenidən yazılır);

- məlumatı sanki ikinci dərəcəli mənbənin müəllifinə məxsus olmuş kimi ifadə edirlər (bu cür sitat gətirmə növündə, əksinə, ilkin məlumat mənbəyinin mövcudluğu gizlədilir və əsərə ikinci dərəcəli mənbənin biblioqrafik məlumatları daxil edilir).

Bu səhvlərin hər ikisi elmi işdə eyni dərəcədə qəbuledilməzdir. Belə sitat gətirmə elmi faktların təhrif edilməsinə və başqasının işinin nəticələrinin mənimsənilməsinə gətirib çıxarır. İşinizdə bu səhvləri təkrarlamamaq üçün ikinci dərəcəli mənbələrə istinad etmək qaydalarını diqqətlə oxuyun.

Elmi işdə verilən bütün sitatlar ilkin mənbələrə qarşı müstəqil şəkildə yoxlanılmalıdır. Əsər üçün prinsipial əhəmiyyət kəsb edən məlumatlara istinad edərkən, bu məlumatı ilkin mənbə ilə müqayisə etmək, hətta sözlü sitat olmasa belə, yoxlamaq məsləhətdir. Bu cür yoxlama əsas mənbəyə istinad edərkən digər müəlliflər tərəfindən buraxılmış mümkün səhvlərin təkrarlanmasının qarşısını alacaq, həmçinin təhsilalana orijinal müəllifin mövqeyinin başa düşülməsinin düzgünlüyünü və sitat gətirilən sözlərin təfsirinin düzgünlüyünü yoxlamağa imkan verəcəkdir.

İstinad edilən mətnlərlə müstəqil tanışlıq da elmi etikanın ən mühüm tələbidir: yalnız müəllifin şəxsən tanış olduğu mətnlər birinci dərəcəli sitatlar kimi göstərilə bilər. Əks halda, belə sitat plagiat hesab olunur (ikinci dərəcəli sitat mənbəyinə istinad etməməklə, əsərin müəllifi bununla başqa şəxsin tədqiqat və analitik işinin nəticəsini mənimsəmiş olur).

İlkin mənbəyi göstərmək mümkün olmayan hallar:
- İlkin mənbə geridönməz şəkildə itirildikdə.
- İlkin mənbə əlçatmaz olduqda və ya onun axtarışı obyektiv səbəblərdən çətin olduqda (məsələn, qapalı kitabxanalarda və ya bazalarda yerləşdikdə).
- Sitat edilən mətn müəllifin başqa bir şəxsin xatirələrindəki sözlərin yazısından məlum olduqda.
- İlkin mənbə əsərin müəllifinin tərcüməsi üçün əlçatmaz olan nadir dildə yazıldıqda.
- Sitat ikinci dərəcəli mənbə müəllifinin arxiv və ya ədəbi araşdırması nəticəsində tapıldıqda (məsələn, klassik ədəbi əsərdən uğurlu parça seçildikdə). Bu halda təhsilalan göstərilən biblioqrafik məlumatlar əsasında müstəqil şəkildə sitat tapıb ikinci mənbəyə istinad etmədən sitat gətirirsə, bu, müstəqil aparılmış arxiv və ya ədəbi araşdırma haqqında yanlış təsəvvür yarada bilər. Sitat ona istinad edən müəllifin arqumentasiya sisteminin təsviri kimi verilir (bu halda sitatın özü deyil, onun nəzərdən keçirilən mətndə istifadəsi maraq doğurur).

**Diqqət yetirin!**
- İkinci dərəcəli mənbə üzrə mətnə istinad edərkən təkcə orijinal mətnin mənbəyini deyil, həm də sitatın hansı mənbədən götürüldüyünü göstərmək lazımdır.
- Ona görə də verilən sitatın giriş sözlərində orijinal mətnin mənbəyini və bu mətnin hansı mənbədən götürüldüyünü qeyd etmək tövsiyə olunur. Bu zaman istifadə olunan mənbələr siyahısında sitatın tapıldığı ikinci dərəcəli mənbəyə istinad edilir.
- Elmi əsərdə xarici müəlliflərin əsərlərinə istinadların olması problemin nəzəri inkişaf səviyyəsini göstərir, müəlliflərin tədqiqat fəaliyyətindən xəbər verir. Əksər hallarda xarici mənbələrdən istifadə müasir elmi iş üçün məcburi tələbdir.

**Əcnəbi soyadların və inisialların qeyd edilməsi**

Əcnəbi müəlliflərin soyadları elmi işin yazıldığı dildə verilir. Soyadın və baş hərflərin orijinal yazılışı onların yanında mötərizədə verilir. Əsərdə yerli elmdə geniş tanınan əcnəbi müəllifə istinad varsa, orijinal adın əlavə yazılışı tələb olunmur.
Əcnəbi müəlliflərin soyadlarından və inisiallarından düzgün istifadə etmək üçün oxşar mövzularda azərbaycandilli nəşrlərə istinad edərək onların Azərbaycan dilinə tərcüməsi ənənəsini yoxlamaq lazımdır. Əgər müəlliflərin soyadları əvvəllər azərbaycandilli mənbələrdə qeyd olunmayıbsa, əcnəbi soyadların transliterasiya qaydalarına əsasən tərtib edilmiş soyad və inisialların müəllif tərəfindən transliterasiyasını təklif etməlisiniz.

**Diqqət yetirin!**
İstifadə olunmuş ədəbiyyat siyahısında əcnəbi nəşrlərin adları, müəlliflərin soyadları, inisialları və digər biblioqrafik məlumatlar orijinal dildə göstərilir.

**Əcnəbi terminlərdən sitat gətirilməsi**
Elmi məqalədə istinad edilən əcnəbi terminlər məqalənin dilindən tərcümədə verilir. Əcnəbi terminləri tərcümə edərkən, ilk növbədə, onların azərbaycandilli nəşrlərdə tərcüməsi ənənəsini yoxlamaq lazımdır. Tərcümə tapılmadıqda və ya məqalənin müəllifinə qeyri-dəqiq görünərsə, o, öz tərcüməsini təklif edə bilər (bu halda azərbaycandilli tədqiqatlarda bu terminin tərcüməsi ənənəsini qeyd etmək və tərcümənin müəllif variantını əsaslandırmaq lazımdır).
Xüsusi terminlər ümumiyyətlə məlum deyilsə və ya məqalənin müəllifi tərəfindən ilk dəfə tərcümə olunubsa, tərcümənin yanında mötərizədə onların orijinal orfoqrafiyasını vermək tövsiyə olunur.

**Əcnəbi mənbələrdən mətn fraqmentlərinin sitat gətirilməsi**
Əcnəbi mənbələrdən mətn fraqmentlərindən sitat gətirilərkən, sitatlar müəllifin tərcüməsində məqalənin əsas mətninin dilində verilməlidir. Müəllif tərcümənin düzgünlüyünə əmin deyilsə, parafrazadan istifadə etmək tövsiyə olunur.
Əcnəbi elmi əsərlərin tərcüməsi və istinadları zamanı standart elektron tərcümə vasitələrindən istifadə etmək tövsiyə olunmur. Soyadları və terminləri tərcümə edərkən mübahisəli vəziyyətlər yaranarsa, akademik rəhbərinizə və ya xarici dil müəlliminizə kömək üçün müraciət edin. Süni intellektdən istifadə qadağandır (bu təqdim olunmuş işin orijinal olması zəruriyətindən irəli gəlir).

**Özünə istinad**
Əsər müəllifin əvvəllər apardığı tədqiqatlara əsaslanırsa, nəticələri dərc olunubsa, əsərdə bu əsərlərə istinadlar göstərilməlidir. Öz əsərlərinə istinadlar və onların istinadlar siyahısında qeyd edilməsi adi bir təcrübədir. Bu, özünü plagiatdan, əvvəllər dərc edilmiş məlumatların təkrarlanmasından yayınmağa kömək edir, həmçinin maraqlı oxucuya müəllifin digər əsərləri ilə tanış olmağa imkan verir.
Özünə istinad digər müəlliflərin istinadları kimi əsaslandırılmalı və elmi işin mövzusuna və məqsədlərinə uyğun olmalıdır.

**Qanunvericilik və normativ-hüquqi aktlarından sitat gətirilməsi**
Qanunvericilik və normativ-hüquqi aktlardan, rəsmi nəşrlərdən sitat gətirilir; ikinci dərəcəli mənbələrdən sitat gətirmək tövsiyə edilmir.
Qanunvericilik və normativ-hüquqi aktlardan sitat gətirərkən, sitatın əsərin yazıldığı zaman ən son yeniliklərə əsaslandığına əmin olun. Bəzən bu cür nəşrlərdən düzgün sitat gətirmək üçün mütəxəssis məsləhətləşməsi tələb olunur.

**Bədii əsərlərdən sitat gətirilməsi**

Klassik bədii əsərlərdən sitat gətirilməsi bədii ədəbiyyat əsərlərinin elmi nəşrinin həyata keçirildiyi Toplu Əsərlərin, Tam Toplu Əsərlərin ən nüfuzlu nəşrlərinə uyğun olaraq həyata keçirilir. Lazım gələrsə, yazı işinin mövzusuna görə (məsələn, nəşrdən çıxan nəşrlərdə müəllif əsərin mətnini dəyişib, məcmuə əsərində isə mətnin bütün variantları verilmir) belə əsərlərin ilk (qüvvədə olan) nəşrlərindən istifadə oluna bilər.

**Sitatlarda mətnin, şərhlərin və ixtisarların dəyişdirilməsi**

Başqasının mətninin fraqmentlərindən sitat gətirərkən hərfiliyin qorunmasının ciddi qaydasına baxmayaraq, bəzi hallarda sitatın mətninin dəyişdirilməsinə yol verilir.

Sitat mətninin dəyişdirilməsinə yol verilən hallar:

- XX əsrin əvvəllərinə qədər nəşr olunan mətnlər orfoqrafiya və durğu işarələri müasirləşdirildikdə.
- Mətnin qısaldılmış sözləri tam sözlərə çevrildikdə. Bu zaman sözün əsərin müəllifi tərəfindən tamamlanan hissəsi kvadrat mötərizəyə götürülür. Genişləndirmə yalnız oxucunun sitatı başa düşməsi çətin olduqda məsləhət görülür.
- İfadədə sözlərin daxil olduğu söz birləşməsinin sintaksik quruluşuna tabe olması halında hal dəyişdirildikdə.
- İstinad edilən sənədin mətnində aşkar edilmiş səhvlər və uyğunsuzluqlar göstərildikdə. Bu zaman sitat müəllifinin buraxdığı səhvlər və uyğunsuzluqlar düzəldilmir, səhvdən sonra yumru mötərizədə sual işarəsi qoyulur.

**11. Yekun müddəalar**

Universitet gözləyir ki, bu Qaydaların pozulduğunu güman etməyə əsası olan Universitet əməkdaşları və təhsilalanlar rəhbərlərinə və ya uyğunluq (komplaens) xidməti mütəxəssislərinə bu Qaydaları pozmuş və ya pozmaq imkanı olan şəxslər haqqında dərhal məlumat verəcəklər.

Bu Qaydaların müddəaları ilə bağlı şübhə və ya qeyri-müəyyənlik yarandıqda, dəqiq məsləhət almaq üçün rəhbərinizə, kuratorunuza və ya uyğunluq (komplaens) xidmətinin mütəxəssislərinə müraciət etməlisiniz.

Universitet bu Qaydaların tələblərinə riayət edilməsi və ya bu Qa ydaların müddəalarının pozulması barədə Universitetə məlumat verilməsi ilə əlaqədar Universitetin təşəbbüsü ilə bu münasibətlərin heç bir subyektinin məsuliyyətə cəlb olunmayacağına və ya digər xoşagəlməz nəticələrlə üzləşməyəcəyinə zəmanət verir.

## Təhsilalanların Davranış Kodeksinin və Akademik dürüstlük Qaydalarının pozulmasına görə intizam məsulliyyəti və onun tədbiqi Qaydaları

**Mündəricat**

**1. Təhsilalanların Davranış Kodeksinin normalarının pozulmasına görə intizam məsuliyyəti və formaları**
**2. Akademik dürüstlük normalarının pozulmasına görə intizam məsuliyyəti və formaları**

## I. Davranış Kodeksinin normalarının pozulmasına görə intizam məsuliyyəti və formaları

Təhsilalanların Davranış Kodeksi Universitet mühitində nizam-intizamın, etik normaların və akademik dürüstlüyün təmin edilməsi üçün əsasdır. Bu Kodeksin müddəalarını pozan təhsilalanlara qarşı pozuntunun xarakteri, ağırlığı və təkrar olunma tezliyindən asılı olaraq aşağıdakı intizam tədbirləri tətbiq edilə bilər. Hər bir cəza növünün məqsədi təhsilalanın davranışını düzəltmək, gələcəkdə oxşar halların qarşısını almaq və Universitet ictimaiyyəti üçün ədalətli mühiti qorumaqdır.

1-ci Dərəcəli Pozuntular (Yüngül)
Bu kateqoriyaya Universitet mühitində nizam-intizamı yüngül şəkildə pozan, birbaşa təhlükə yaratmayan və ya böyük ziyan vurmayan hallar daxildir. Məqsəd tələbəni maarifləndirmək və gələcəkdə daha ciddi pozuntuların qarşısını almaqdır.

- Şifahi Xəbərdarlıq:
  Tətbiqi: Bu, ən yüngül intizam tədbiridir və adətən ilk dəfə baş verən kiçik pozuntulara (məsələn, dərslərə davamiyyət qaydalarını kiçik pozuntular, səs-küy salmaq, təmizlik qaydalarına laqeyd yanaşma) qarşı tətbiq edilir.
  Məqsədi: Pozuntunun xarakteri təhsilalana aydın şəkildə izah edilir. Təhsilalana Kodeksin müddəaları bir daha xatırladılır və gələcəkdə bu cür hallara yol verməməyin vacibliyi vurğulanır. Bu, təhsilalanın öz davranışını düzəltməsinə ilk fürsət verir.
  Proses: Adətən dekanlıq, müəllim və ya müvafiq Universitet əməkdaşı tərəfindən edilir. Təhsilalanın şəxsi dosyesinə qeyd edilə bilər, lakin bu, rəsmi intizam cəzası kimi qiymətləndirilmir.
- Yazılı Töhmət:
- Tətbiqi: Şifahi xəbərdarlıqdan sonra təkrar olunan yüngül pozuntular, yaxud ilkin olaraq şifahi xəbərdarlıqdan daha ciddi qəbul edilən, lakin hələ də orta dərəcəli sayılmayan pozuntular üçün tətbiq edilir. Məsələn, bir neçə dəfə xəbərdarlıq edilməsinə baxmayaraq davamiyyət qaydalarının pozmaq, Universitetin daxili qaydalarına (məsələn, geyim qaydaları) əməl etməmək, qeydiyyat və yaxud yaşadığı ünvanda, fərdi identifikasiya məlumatlarında və digər rekvizitlərində dəyişikliklər baş verərsə, Universitetə 5 (beş) iş günü ərzində məlumat verməmək;
  Məqsədi: Pozuntu ilə bağlı görülən tədbir haqqında təhsilalana rəsmi yazılı bildiriş verilir. Bu, pozuntunun rəsmi qeydiyyatıdır və təhsilalanın şəxsi dosyesinə əlavə edilir. Təhsilalana davranışının ciddiliyi və qaydalara əməl etməyin hüquqi vacibliyi daha kəskin şəkildə bildirilir.
  Proses: müvafiq struktur bölmənin (məsələn, dekanlıq) rəhbəri tərəfindən təhsilalana yazılı töhmət verilir. Təhsilalan bu sənədlə tanış olduğunu imza ilə təsdiq edir. Təhsilalan sənədlə tanış olması barədə imza atmaqdan imtina etdiyi halda müvafiq qaydada aktlaşdırılır.
- Məsləhət və Təlimat:
  Tətbiqi: Bəzən pozuntular bilməməzlikdən və ya xüsusi vəziyyətlərdən qaynaqlana bilər. Bu halda təhsilalana qaydalar haqqında əlavə məlumat verilir və gələcəkdə oxşar pozuntuların qarşısını almaq üçün məsləhətlər verilir. Məsələn, akademik yazı qaydaları, müəyyən resurslardan istifadə etmə qaydaları haqqında təlimatlar.
  Məqsədi: Təhsilalanın anlayışını artırmaq və ona düzgün davranış yollarını öyrətmək. Bu cəza növü daha çox preventiv xarakter daşıyır.
  Proses: Müəllim, dekanlıq nümayəndəsi və ya Universitetin psixoloji xidməti tərəfindən həyata keçirilə bilər.

2-ci Dərəcəli Pozuntular (Orta)

Bu kateqoriyaya akademik fəaliyyətə, Universitetin nizam-intizamına və ya ictimai əhval-ruhiyyəyə orta səviyyədə təsir edən pozuntular daxildir (Məsələn: Universitetin ərazisində siqaret çəkmək, içkili vəziyyətdə olmaq, Universitetin avadanlıqlarına qəsdən və ya səhlənkarlıqla ziyan vurmaq, kitabxana materiallarının itirmək və s.). Bu pozuntular adətən Universitetin resurslarına, reputasiyasına və ya digər tələbələrin təhsil mühitinə mənfi təsir göstərə bilər.

- *Müəyyən Müddətə Fəaliyyətdən Uzaqlaşdırma:*
  Tətbiqi: Bu cəza təhsilalana müəyyən bir müddət ərzində dərslərdən, laboratoriya işlərindən, imtahanlardan, tədbirlərdən və ya Universitetin digər fəaliyyətlərindən kənarlaşdırılmasını nəzərdə tutur. Müddət bir neçə gündən bir neçə həftəyə qədər dəyişə bilər. Məsələn, Universitet əmlakına qismən ziyan vurma, təhsilverənlərin və digər təhsilalanın təhsil hüquqlarını pozan sistematik davranışlar, təhsilverənlərin və tədrisə köməkçi heyətin öz vəzifələrini icra etməsinə maneələr törətmə və s.
  Məqsədi: Təhsilalana davranışının ciddi nəticələrə səbəb olduğunu göstərmək, həmçinin digər təhsilalanlar üçün nümunəvi bir tədbir olaraq xidmət etmək. Bu müddətdə təhsilalan öz hərəkətləri barədə düşünmək və davranışını dəyişdirmək imkanı qazanır.
  Proses: Universitetin müvafiq intizam komissiyasının qərarı ilə rektorun əmri ilə tətbiq edilir. Təhsilalanın bu müddətdə dərslərdə və ya digər fəaliyyətlərdə iştirakı qadağan olunur.
- *Kompensasiya və ya Bərpa İşləri*:
  Tətbiqi: Təhsilalandan Universitetə və ya üçüncü tərəfə vurduğu maddi ziyanı ödəmək və ya bərpa etmək tələb oluna bilər. Bu, həmçinin ictimai işlərin yerinə yetirilməsi (Məsələn, Universitetin ərazisinin təmizlənməsi, kitabxana işlərində köməklik) şəklində ola bilər.
  Məqsədi: Ziyanı aradan qaldırmaq və təhsilalanda məsuliyyət hissini formalaşdırmaq.
  Proses: Ziyanın qiymətləndirilməsindən sonra müvafiq qərar qəbul edilir və təhsilalana ödənişin və ya işin növü və həcmi barədə məlumat verilir.

3-cü Dərəcəli Pozuntular (Ağır)

Bu kateqoriyaya Universitetin nüfuzuna, təhlükəsizliyinə, akademik mühitinə və ya digər üzvlərinin sağlamlığına ciddi təhdid yaradan, qanunvericiliyi pozan və ya təkrarlanan ciddi intizam pozuntuları daxildir.

- Universitetdən xaric edilmə:
- Tətbiqi: Bu, ən ağır intizam cəzasıdır və təhsilalanın Universitetdə təhsilini davam etdirmək hüququnun birdəfəlik ləğv edilməsini nəzərdə tutur. Məsələn, təhsilalanın təkrarlanan akademik saxtakarlığı, Universitet əmlakına böyük ziyan vurması, digər təhsilalanlara və ya əməkdaşlara qarşı zorakılıq, irqçilik, ayrı-seçkilik, cinayət tərkibli hərəkətləri, narkotik maddələrin yayması, miqrasiya qanunvericiliyinin tələblərinin kobud surətdə pozulması; 3 ay davamlı olaraq dərslərdə iştirak etməməsi və bu müddətdə Universitet ilə əlaqə saxlamaması və s.
  Məqsədi: Universitet ictimaiyyətinin təhlükəsizliyini və rifahını təmin etmək, Kodeksin ciddi şəkildə pozulması hallarına qarşı sərt mövqe nümayiş etdirmək.
  Proses: Universitetin İntizam Komissiyası tərəfindən hərtərəfli araşdırma və müzakirələrdən

sonra qərar qəbul edilir və rektorun əmri ilə rəsmiləşdirilir. Təhsilalana özünü müdafiə etmək üçün tam imkan verilir.

- Hüquqi Tədbirlər: Universitetdən xaric edilmə
  Tətbiqi: Təhsilalanın hərəkətləri Azərbaycan Respublikasının qanunvericiliyini pozarsa (məsələn, oğurluq, zorakılıq, saxta sənədlərin istifadəsi, narkotik alveri və s.), Universitet bu barədə hüquq-mühafizə orqanlarına məlumat verə bilər və təhsilalana qarşı cinayət və ya inzibati iş başlana bilər.
  Məqsədi: Qanunvericiliyin aliliyini təmin etmək və Universitetin hüquqi müstəvidə məsuliyyətini yerinə yetirmək.
  Proses: Universitetin rəhbərliyi tərəfindən hüquq-mühafizə orqanları ilə əlaqə saxlanılır. Bu cəza, Universitetdən xaric edilmədən əlavə olaraq tətbiq edilə bilər.

Ümumi Qeydlər:
Ədalətli Proses: Hər bir intizam işi zamanı "Şikayətlərin idarə edilməsi və araşdırılması Proseduru"na tam riayət ediləcək. Bu, təhsilalana özünü müdafiə etmək, sübutlar təqdim etmək və şikayət etmək hüququnun verilməsini təmin edir.
Fərdi Yanaşma: Cəzanın növü və dərəcəsi hər bir pozuntunun fərdi xüsusiyyətləri (məsələn, pozuntunun bilərəkdən edilməsi, pozuntunun ağırlıq dərəcəsi, peşmançılıq, əvvəlki intizam tədbirləri və s.) nəzərə alınmaqla müəyyən edilir.
Bildiriş: Bütün cəzalar tələbəyə yazılı şəkildə bildiriləcək və tələbəyə şikayət etmək hüququ barədə məlumat veriləcəkdir.
Məxfilik: İntizam pozuntularının araşdırılması zamanı məxfilik prinsiplərinə riayət olunacaq.

Universitetin və təhsilalanların öhdəliklərinə dair ətraflı məlumat bu Davranış Kodeksində əks olunub. Bu Kodeksin tələblərinin pozulması səviyyəsindən asılı olaraq cəza tədbirlərinin tədbiq edilməsinə görə müəllim, kafedra müdiri, dekan, prorektor və rektor məsuliyyət daşıyır. Təhsilalana intizam təndehin verilməsi, o cümlədən müvəqqəti olaraq təhsildən uzaqlaşdırılması və ya universitetdən xaric edilməsi İntizam Komissiyasının qəbul etdiyi qərara əsasən rektorun əmri ilə həyata keçirilir.

**II. Akademik dürüstlük normalarının pozulmasına görə intizam məsuliyyəti və formaları**
Əyani və distant təhsildə akademik dürüstlük normalarının pozulmasına görə üç kateqoriyaya bölünür.

**1-ci Kateqoriya akademik pozuntular və intizam tənbehləri:**
**1-ci Kateqoriya akademik pozuntular (yüngül):**
Bu pozuntular **cari və hüdud yoxlaması zamanı** təcrübəsizlik və ya akademik prinsipləri bilməməsi səbəbindən baş verə bilər və çox vaxt pozuntuya yol vermiş təhsilalanın vicdansız niyyətinin nəticəsi deyil: kiçik tapşırıqların yerinə yetirildiyi zaman başqa təhsilalanla birlikdə işə icazə verilmədiyi halda başqa təhsilalanla birlikdə işləmək; tapşırığın kiçik bir hissəsində qeydlərin və ya müvafiq sitatların olmaması; sitat gətirilən mətnə istinad etmədən ideyadan və ya ümumi arqumentdən istifadə etmək; əvvəlki pozuntular olmadan səhvən sitatların buraxılması və s.

**1-ci Kateqoriya akademik pozuntulara görə intizam tənbehləri**

| Akademik pozuntuların növləri | İntizam tənbehin növü | Sənədlər |
|---|---|---|
| Başqa təhsilalanla birlikdə işləmək | Yazılı irad;<br>əlavə tapşırığın yerinə | Təhsilalanın izahatı;<br>Aşkar edilmiş pozuntu |

| | | |
|---|---|---|
| | yetirilməsi; | haqqında akt (müəllim tərəfindən pozuntu faktının əlavə 2 şahidinin imzası ilə tərtib edilir): qrup nümayəndəsi və kafedra müdirinin tədris işləri üzrə müavini);<br>Sənədlər paketi ilə xidməti qeyd (kafedra müdirindən dekana) (kafedra iclasının protokolu, aşkar edilmiş pozuntu aktı və təhsilalanın izahatı).<br>Vacibdir:<br>1-ci kateqoriya pozuntusu aktları ayrıca pozuntular jurnalında qeydə alınır. Hər kafedranın və fakültənin öz qeydiyyat jurnalı olmalıdır! |
| qeydlərin və ya lazımi istinadların olmaması | Yazılı irad;<br>Tapşırığa görə “0” (sıfır) bal;<br>əlavə tapşırığın yerinə yetirilməsi; | |
| İdeyadan istifadə edilməsi və ya tapşırığın kiçik bir sahəsindəki mənbələrdən sitat qətirilməsi, mətnə istinad etmədən ümumi arqument qətirməsi | Yazılı irad;<br>Tapşırığa görə “0” (sıfır) bal;<br>əlavə tapşırığın yerinə yetirilməsi; | |
| əvvəlki pozuntular olmadan sitatların səhvən buraxılması | Yazılı irad;<br>əlavə tapşırığın yerinə yetirilməsi; | |
| | etika və ya akademik dürüstlük üzrə yazılı tapşırıq və ya tədqiqat layihəsinin yerinə yetirilməsi; | |
| “şparqalkadan”,mobil telefonlardan istifadə | Tapşırığa görə “0” (sıfır ) bal; | |

1-ci Kateqoriya intizam tənbehləri müəllim / kafedra müdiri tərəfindən tədbiq edilə bilər. Bir pozuntuya görə bir və ya bir neçə intizam tənbehi tətbiq oluna bilər.

**2-ci Kateqoriya akademik pozuntular və intizam tənbehləri:**

**2-ci Kateqoriya akademik pozuntular (orta):**

1) əvvəllər intizam tənbehi tətbiq edilib - edilməməsindən asılı olmayaraq 1-ci kateqoriya pozuntunun təkrarlanması;
2) mənbə göstərilmədən birbaşa orta dərəcədə sitat gətirilməsi və ya yenidən ifadə edilməsi;
3) bir məşğələdən çox tələbləri ödəmək məqsədilə başqa bir işin surəti və ya əhəmiyyətli hissəsi olan işin təhvil verilməsi;
4) laboratoriya hesabatları üçün mənbələri və ya iş iştirakçılarını lazımi şəkildə göstərmədən məlumat və ya izahat materiallarından istifadə;
5) tapşırıqları və ya layihəni yerinə yetirən digər şəxslər tərəfindən göstəriş qaydasına riayət edilməməsi (məsələn, tədqiqatda, statistik təhlildə, kompüter proqramlaşdırmasında, məlumatların toplanmasında, yazılı işlərdə kömək göstərilməsi zamanı, əgər belə yardım tapşırığın tərkib hissəsi olmuşdursa);
6) imtahan zamanı başqa təhsilalanın imtahan vərəqindən köçürmə, imtahan vaxtı bitdikdən sonra danışmaq və ya yazmağa davam etmə;
7) imtahan zamanı müəllimin / imtahan götürənin/ icazəsi olmadan “şparqalkadan”, mobil telefonlardan, kompüterlərdən, kitablardan, kalkulyatorlardan və digər materiallardan / cihazlardan istifadə;
8) imtahan zamanı “şparqalkadan” istifadə, əlavə vasitələrdən və internet resurslarından istifadə,

əlavə mobil telefonlardan, kitablardan, ağıllı(smart) saatlardan, kalkulyatorlardan istifadə (imtahanı distant formada verərkən);
9) imtahan zamanı köçürməyə kömək etmək;
10) imtahan zamanı üçüncü şəxslərin köməyə cəlb etmək;
11) yazılı işlərdə plagiat: esse, məqalə, təqdimatların yazılması hissəsində bakalavr (baza ali tibb təhsili) pilləsində 20%-ə qədər, rezidenturada 15%-ə qədər, magistraturada 10%-ə qədər, doktoranturada 5 %-ə qədər;
12) bakalavr pilləsində diplom işlərinin yazılması zamanı plagiat: 15 %-ə qədər (85% orijinallıq), magistr dissertasiyaları 10%-ə qədər (90% orijinallıq), doktorluq dissertasiyaları 5 %-qədər (orijinallıq 95 %);
13) şəxsi ETS loqini və parolu üçüncü şəxslərə ötürmək, dərc edilmiş və ya ehtiyat nüsxəsini çıxaran materialları silmək və ya zədələmək və ya digər təhsilalanların materiala girişinə başqa şəkildə müdaxilə etmək;
14) başqa bir təhsilalana tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsinə maneələr yaratmaq.

**2-ci Kateqoriya akademik pozuntulara görə intizam tənbehləri**

| Akademik pozuntuların növləri | İntizam tənbehləri | Sənədlər |
|---|---|---|
| 2-ci kateqoriyaya aid bütün **pozuntular** | Töhmət verilməsi və qiymət «qeyri - kafi» yazılaraq işin nəticələrini ləğv etməsi | Təhsilalanın izahatı;<br>Aşkar edilmiş pozuntu haqqında akt<br>Akademik dürüstlüyün pozulmasına dair komissiyanın protokolu;<br>Komissiyanın sədrinin təqdimatına əsasən təhsilalanın şəxsi işinə daxil edilməklə intizam tənbehinin verilməsi (töhmət) haqqında rektorun əmri;<br>Əhəmiyyətli:<br>2 və 3-cü kateqoriyalar üzrə pozuntulara görə intizam tənbehinin verilməsi haqqında əmr hüquqşünasla razılaşdırılmalıdır |

**Qeyd:** Apellyasiya Komissiyasına müraciət zamanı yol verilən akademik dürüstlük Qaydalarının istənilən şəkildə pozulması da 2-ci kateqoriya pozuntusu hesab olunacaq.

**3-cü kateqoriya akademik pozuntular və intizam tənbeh tədbirləri:**

**3-cü kateqoriya akademik pozuntular (ağır):**

1) əvvəllər intizam tənbeh tədbirləri tətbiq edilib-edilməməsindən asılı olmayaraq 2-ci kateqoriya pozuntusunun təkrar törədilməsi;

2) uydurma və ya qəsdən təhrif edilmiş materiallar təqdim etməklə məlumatların saxtalaşdırılması və ya təhrif edilməsi;

3) qiymətləndirmə vərəqələrinin və ya qiymətləri əks etdirən digər sənədlərin saxtalaşdırılması, müəllimdən və ya imtahan qəbul edəndən imtahan materiallarının oğurlanması/fotoşəkillərinin çəkilməsi, oğurlanmış imtahan materiallarının alınması, o cümlədən xaker hərəkətləri yolu ilə;

4) imtahan vermək üçün özünün başqa bir şəxslə əvəz edilməsi və ya başqa şəxsin əvəzinə imtahan verilməsi;

5) imtahan dövrünə qədər icazəsiz mənbələrdən imtahan materiallarının surətlərinin əldə edilməsi və ya yayılması;

6) imtahan zamanı icazəsiz məlumat mübadiləsi üsullarının işlənib hazırlanması üçün imtahandan əvvəl təhsilalanların sövdələşməsi;

7) Təhsilalanın yekun dövlət attestasiyasından və ya buraxılış imtahanlarından keçməməsi (təqvim ilinin sonuna qədər yekun dövlət attestasiyasında və ya buraxılış imtahanlarında iştirak etməməsi).

8) bu bölmədə sadalanan əməllərdən hər hansı birinin təşkil edilməsi və ya törətmək məqsədilə sövdələşməsi;

9) Komissiyanın qərarı ilə ən yüksək dərəcədə ciddi hesab edilən akademik dürüstsüzlüyə aid edilən digər hərəkətə yol verilməsi.

**3-cü kateqoriya akademik pozuntulara görə intizam tənbeh tədbirləri:** Universitetin İntizam Komissiyasının Qərarı qəbul edildiyi tarixdən 5 (beş) gün ərzində Universitetdən xaric edilmə.

**“Şikayətlərin idarə edilməsi və araşdırılması Proseduru"**

1. **Öhdəliyimiz**
2. **Şikayətlər**
3. **Bələdçi prinsiplər**
4. **Şikayətlərin rədd edilməsi**
5. **Şikayətlərin idarə edilməsi**
6. **Şikayətçi və cavabdeh tərəfin davranışı və öhdəlikləri**
7. **Əks-tədbirlərdən müdafiə**
8. **Anonim şikayətlər**
9. **Məxfilik və şəxsi məlumatların qorunması**
10. **Şikayətdən imtina**
11. **Qeydiyyatın aparılması və məlumat mübadiləsi**
12. **Apellyasiya şikayətləri**

1. **Öhdəliyimiz**

**ATU qarşılıqlı əlaqədə olduğu şəxslərin fikirlərinə hörmətlə yanaşır və şikayətlərin dəyərini və onların səmərəli həllini təşviq edən mədəniyyəti inkişaf etdirməyə sadiqdir.** ATU, şikayətlərin insanların və təşkilatın daha yaxşı anlaşılmasına töhfə verə biləcəyini və davamlı inkişaf üçün imkanlar yaradacağını qəbul edir.
ATU şikayətləri dürüstlük, ləyaqət və bütün tərəflərə hörmət prinsipləri əsasında, əsassız ləngimə olmadan, prosesin şəffaflığı ilə və mümkün qədər şikayətin qaynaqlandığı yerə yaxın şəkildə – müzakirə, əməkdaşlıq və uyğun olduqda barışdırma yolu ilə – həll etməyə çalışır. Məqsəd, davam edən təhsil və ya əmək münasibətlərinə və ya fərdlərin nüfuzuna minimal mənfi təsirlə ədalətli və əsaslandırılmış nəticəyə nail olmaqdır.
Biz, mümkün olduğu qədər, işçilərin sağlamlığı və təhlükəsizliyinin təmin olunmasını, eləcə də ATU-nun fəaliyyətləri, xidmətləri və prosesləri nəticəsində təhsilalanların və digər şəxslərin sağlamlığı və təhlükəsizliyinin riskə atılmamasını təmin etməyə çalışacağıq.

**Bu öhdəlik "Təhsilalanın Davranış Kodeksində əks olunmuşdur.** Bu yanaşma, həmçinin təhsil və tədqiqat, insan hüquqları, xarici və yerli təhsilalanların hüquqları və əməkdaşların hüquqi təminatları ilə bağlı qanunvericilik, qaydalar və standartlar daxil olmaqla, lakin onlarla məhdudlaşmamaq şərtilə, hüquqi öhdəliklərimizlə daha da möhkəmləndirilir

2. **Şikayətlər**

**2.1 Şikayət nədir?**

**ATU-nun əməkdaşları, fəaliyyəti, xidmətləri və ya prosesləri ilə bağlı narahatlıq doğuran məsələ və ya irəli sürülən məsələdir ki, bu barədə cavab və ya həll yolu tələb olunur və ya gözlənilir.**
ATU-da şikayətlər, adətən, növünə, əhəmiyyət və mürəkkəblik səviyyəsinə görə kateqoriyalara ayrılır və bu amillər onların necə idarə olunacağını müəyyən etməkdə rol oynayır. Şikayətlər aşağıdakılarla bağlı ola bilər:

**a)** ATU rəhbərliyinin qərarları, akademik, tədqiqat və ya inzibati məsələlər;
**b)** siyasət və prosedurların düzgün tətbiq edilməməsi və ya xidmətin göstərilməsində narazılıq, prosedur ədalətinin pozulması, hüquqların təmin edilməməsi, müvafiq məsələlərin nəzərə alınmaması, yanlış məsləhət nəticəsində zərər çəkilməsi, səhlənkarlıq;
**c)** şəxsin davranışı və ya ATU-nun Təhsilalanların Davranış Kodeksinin pozulması ilə bağlı iddialar – buraya intihal, qeyri-etik və ya qərəzli qiymətləndirmə, maraqların toqquşması, fırıldaqçılıq, qeyri-dürüstlük, əsassız tərəfkeşlik, ayrı-seçkilik, təzyiq, zorakılıq və gender əsaslı zorakılıq kimi etik və dürüstlük məsələləri daxildir.

Şikayətdə aşağıdakılar göstərilməlidir:

- müraciətə baxan subyektin adı və ya onun vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi (vəzifəli şəxsin elektron ünvanına göndərilən müraciətlər istisna olmaqla);
- müraciət edən təhsilalanın adı, atasının adı, soyadı və ünvanı, hüquqi şəxsin adı və hüquqi ünvanı;

şikayət nümayəndə vasitəsilə təqdim edildikdə, nümayəndənin adı, soyadı, atasının adı və ünvanı.

**2.2 Nə şikayət olaraq qəbul edilmir?**

**Ümumi sorğular, məlumat istəkləri və ya rəy vermə tələbləri şikayət kimi qəbul edilmir.** Şikayət, müəyyən bir prosedura əsasən sənədləşdirilmiş şəkildə həyata keçirilən hərəkət və ya qərarın yenidən baxılmasından fərqlənir.

## 3. Bələdçi Prinsiplər

ATU-da şikayətlərin idarə olunması aşağıda göstərilən bələdçi prinsiplərə əsaslanır:

### 3.1 Şikayətlərin asanlaşdırılması
#### 3.1.1 Əlçatanlıq

Şikayət prosesi əlçatan və anlaşılandır, və hər bir şəxs öz narahatlıqlarını ifadə etməkdə özünü təhlükəsiz və dəstəklənmiş hiss etməlidir. ATU bunu aşağıdakı yollarla təmin edəcəkdir:

a) şəxslərin şikayət verməsinə kömək etmək üçün məlumat və dəstək xidmətləri təqdim etməklə;
b) şikayət etmək üçün asanlıqla istifadə edilə bilən və əlçatan üsulları təmin etməklə;
c) şikayət verməkdə əlavə dəstəyə ehtiyacı olan şəxslərə dəstək göstərməklə;( Məsələn, şikayət prosesini başa düşmək və iştirak etmək üçün dil tərcüməçisinə ehtiyacı olanlar və ya əlilliyi olan şəxslər üçün məlumatların xüsusi formatda təqdim edilməsinə ehtiyac ola bilər.) Zərurət olduqda və müvafiq razılıq əsasında ATU nümayəndə (məsələn, ailə üzvü, tərcüməçi və ya hüquqi nümayəndə) vasitəsilə də ünsiyyət qura bilər.

### 3.2 Şikayətlərə cavab verilməsi
#### 3.2.1 Nəzakət və hörmət

Şikayətlərin idarə olunması prosesində iştirak edən bütün tərəflərdən, şikayətlə bağlı olan şəxslərlə, o cümlədən həll prosesini həyata keçirən şəxslərlə ünsiyyət zamanı nəzakət və hörmət çərçivəsində davranmaları gözlənilir.

#### 3.2.2 Prosedurun ədalətli şəkildə tətbiqi

Prosedurun ədalətli şəkildə tətbiqi – bu prosedura əsasən şikayətin araşdırılması və idarə olunması zamanı ədalətlilik standartlarının tətbiq olunması tələbidir. ATU aşağıdakılara əməl edəcəkdir:

a) Şikayətin ünvanlandığı şəxsə (cavabdehə) ona qarşı irəli sürülən şikayətlə bağlı məlumatları tam təfərrüatı ilə təqdim edəcək.
b) Həm şikayətçi(lər)ə, həm də cavabdeh(lər)ə öz mövqelərini ifadə etmək imkanı yaradacaq. Zəruri hallarda, onlar hadisələrin öz versiyasını təqdim edə, dəstəkləyici məlumat verə və qərar qəbul edilməzdən əvvəl şikayətə cavab verə biləcəklər.
c) Şikayəti araşdıran şəxs(şəxslər) və qərar qəbul edən şəxsin(şəxslərin) qərəzsiz və tərəfsiz olmasını təmin edəcək. Onlar qərarlarını sübutlara əsasən, müvafiq məlumatlara istinad etməklə qəbul etməli və verilən qərarın səbəblərini açıqlamalıdırlar. Hər hansı real, potensial və ya ehtimal

olunan maraq toqquşması şikayətə baxıldığı zaman bəyan edilməli və müvafiq şəkildə idarə olunmalıdır.

### 3.2.3 Məxfilik və şəxsi məlumatların qorunması

Şikayət idarə olunarkən, tərəflərin məxfiliyi və şəxsi məlumatlarının qorunmasına mümkün və məqsədəuyğun olduğu qədər hörmət ediləcəkdir (qanun və ya digər siyasətlər üzrə açıqlaması tələbləri istisna olmaqla).

### 3.2.4 Operativlik və şəffaflıq

a) Şikayətlər vaxtında qəbul ediləcək və onlara cavab veriləcəkdir. Şikayətləri araşdıran şəxslər, şikayət prosesi və mümkün nəticələr barədə şəffaf olmaqla gözləntiləri düzgün idarə edəcəklər. Müvafiq tərəflər gecikmələr barədə məlumatlandırılacaq.
b) ATU şikayətləri onların ciddiliyi və təciliyi əsasında qiymətləndirəcək və prioritetləşdirəcəkdir. Əgər dərhal təhlükəsizlik və ya mühafizə riski varsa, cavab dərhal veriləcək və məsələ müvafiq səviyyəyə çatdırılacaqdır.
c) Mümkün və məqsədəuyğun olduqda, şikayətlər operativ şəkildə və yerli səviyyədə həll ediləcəkdir ki, bu da təhsil və əmək münasibətlərinə mənfi təsir ehtimalını azaldacaq.

## 4. Şikayətlərin rədd edilməsi

Bəzi hallarda ATU şikayəti qəbul edə və ya ona baxmağa davam edə bilməz. Bu hallar aşağıdakılardan ibarət ola bilər:
a) şikayət düzgün qiymətləndirmə və/və ya araşdırmanın aparılmasına imkan verəcək qədər informasiya ilə təmin olunmamışdır və ATU şikayətçidən və ya digər mənbələrdən kifayət qədər məlumat əldə edə bilməmişdir;
b) şikayət ATU-nun müvafiq siyasət və prosedurlarında göstərilmiş zaman məhdudiyyətlərindən kənarda baş vermiş hadisələrlə bağlıdır;
c) şikayət əsassız və ya qeyri-ciddi xarakter daşıyır;
d) şikayətçi qeyri-rasional davranış nümayiş etdirir və/və ya şikayət prosesinə nəzakət və hörmət göstərmir;
e) şikayət ATU və onun əməkdaşları və ya tərəfdaşlarının səlahiyyətinə daxil olmayan qərar və/və ya davranışlara aiddir;
f) cavabdeh şəxs hadisə baş verən vaxtda ATU İcmasının üzvü olmamışdır;
g) şikayət qanunvericiliyin və ya digər uyğunluq öhdəliklərinin yerinə yetirilməsi çərçivəsində alternativ prosedura əsasən baxılmalıdır;
h) şikayət daha əvvəl araşdırılmış və ya həll edilmiş məsələnin yenidən qaldırılmasına yönəlmişdir.
Şikayət qəbul edilmədiyi halda, şikayətçi(lər)ə bu barədə səbəblər izah ediləcəkdir. Əgər şikayət ATU-nun səlahiyyətindən kənara çıxırsa, bu hal uyğun bir təşkilata yönləndirilə bilər.

### 4.1 Əsassız və ya qeyri-ciddi şikayətlər

Əsassız şikayətlərə, lakin bununla məhdudlaşmamaq şərtilə, əsaslılıqdan məhrum şəkildə, bir və ya bir neçə şəxsə və ya ATU-ya zərər və ya mənfi nəticə vermək məqsədi ilə verilmiş şikayətlər daxildir. Qeyri-ciddi şikayətlər isə, adətən, əhəmiyyətsiz xarakter daşıyır və ya məsələnin əhəmiyyətinə nisbətdə qeyri-mütənasibdir.

Şikayət prosesində iştirak edən bütün tərəflərdən dürüst olmaları və yanıltıcı məlumat təqdim etməmələri gözlənilir.

**5. Şikayətlərin idarə edilməsi**

ATU şikayətçiləri mümkün qədər tez bir zamanda narahatlıqlarını məsul bildikləri şəxslə müzakirə edərək məsələləri özləri həll etməyə təşviq edir. Əgər bu yanaşma narahatlığın xarakterinə görə uyğun deyilsə və ya uğursuz olarsa, ATU problemi yerli səviyyədə və ya rəsmi prosedur vasitəsilə vaxtında həll etməyə dəstək verən şikayətlərin idarə olunması prosesini təqdim edir.
Bu, ATU prosesi çərçivəsində idarə olunan şikayətlər üçün şikayətə baxan şəxs onun necə idarə olunacağına qərar verir.

5.1. **Yerli səviyyədə həll** – ATU nümayəndəsinin iştirakı ilə tərəflər arasında həll edilə biləcək şikayətlər üçündür (kafedra və dekanlıq səviyyəsində) .

5.2. **Universitetin İntizam Komissiyası tərəfindən həll** – ciddi və ya mürəkkəb xarakterli şikayətlər üçündür – şikayətlər mərkəzləşdirilmiş şəkildə idarə olunur və ya dəstəklənir.

5.3. **Daxili yenidən baxılma** – şikayət üzrə qəbul edilmiş qərardan təsirlənmiş şəxs prosedur ədalətinin olmaması və ya araşdırma zamanı mövcud olmayan yeni və istisna hal kimi dəyərləndirilə biləcək məlumatların ortaya çıxması əsasında yenidən baxılma tələb edə bilər.

5.4. **Xarici yenidən baxılma** – şəxs, məsələn Ombudsman kimi müstəqil xarici orqana müraciət edərək Universitetin şikayətə baxma prosesinin yenidən nəzərdən keçirilməsini tələb edə bilər.

**5.5. Akademik dürüstsüzlük hallarına baxılması qaydası**
**1-ci kateqoriya İntizam tənbeh tədbirlərinə baxılması və tətbiqi qaydası**
1) Müəllim pozuntuya yol vermiş təhsilalan ilə kafedra müdirinin və qrup nümayəndəsinin məcburi iştirakı ilə görüşməlidir. Bu zaman həm pozuntunu müəyyən etmiş müəllim, kafedra müdiri, qrup nümayəndəsi tərəfindən, həm də pozuntuya yol vermiş təhsilalan tərəfindən akt imzalanır. Akta təhsilalanın yazılı izahatı əlavə edilir;
2) Yazılı izahat verməkdən imtina və ya yayınma intizam tənbeh tədbirinin tətbiqini istisna etmir.
3) Müəllim müəyyən edilmiş pozuntu aktını həmin gün kafedra müdirinə göndərməlidir. Kafedra müdiri məsələni növbəti gündən gec olmayaraq baxılmaq üçün kafedra iclasına təqdim edir və həmin iclasda təhsilalana intizam tənbeh tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edilir və ya rədd edilir. Sonra 2(iki) iş günu müddətində bütün sənədlərin əsli (kafedra iclasının protokolu, aşkar edilmiş pozuntu aktı və təhsilalanın yazılı izahatı) müvafiq dekanlığa verilir (sürətləri kafedrada qalır).
4) 1-ci kateqoriya intizam tənbeh tədbiri verildikdən sonra 2(iki) iş günü ərzində təhsilalan intizam tənbeh tədbirinin verilməsi haqqında qərarı mübahisələndirmək üçün Apellyasiya Komissiyasının sədrinə şikayət vermək hüququna malikdir.
**2-ci kateqoriya intizam tənbeh tədbirlərinə baxılması və tətbiqi qaydası**
Müəllim aşkar edilmiş pozuntu haqqında aktı rəsmiləşdirir, həmin akt ən azı iki şahid (məsələn, test mərkəzinin əməkdaşı, müəllim, dekanlığın əməkdaşı, tələbə şahid və s.), habelə pozuntuya yol vermiş təhsilalan tərəfindən imzalanır və müəllim materialları 2-ci kateqoriya Akademik dürüstslüyün pozulması üzrə komissiyanın sədrinə təqdim edir. Komissiyanın sədri səlahiyyətlərini müvafiq sahə

üzrə prorektor icra edir.
2) 2-ci kateqoriya akademik dürüstlüyünün pozulması hallarına baxılması üçün rektorun əmri ilə, yay semestrini nəzərə almaqla, bir tədris ili üçün 2-ci kateqoriya akademik dürüstlüyün pozulması üzrə komissiya yaradılır.
Komissiya ən azı 7 nəfərdən - tələbə həmkarlar komitəsinin, dekanlığın, professor-müəllim heyətinin nümayəndələrindən və təhsilalandan ibarətdir. Komissiyanın katibi səsvermə hüququna malikdir.
4) Komissiya işə 5 (beş) iş günü müddətində baxaraq akademik dürüstlüyün pozulmasının olub-olmamasını müəyyən edir və pozuntu faktı sübuta yetirildikdə müvafiq intizam tənbeh tədbiri tətbiq edilməsi barədə qərar qəbul edir.
Qəbul edilmiş qərarla razılaşmadıqda, təhsilalan 2 (iki) iş günündən gec olmayaraq işinə yenidən baxılması tələbi ilə apellyasiya komissiyasına müraciət etmək hüququna malikdir.
Akademik dürüstsüzlük üzrə komissiyanın iclasından 2 (iki) iş günü keçdikdən sonra komissiyanın katibi komissiyanın qərarını fakültə dekanına göndərir.

**3-cü kateqoriya intizam tənbeh tədbirlərinə baxılması və tətbiqi qaydası**
1) Aşkar edilmiş pozuntu aktının təşəbbüskarı müvafiq materialları hazırlamalı və 3-cü kateqoriya Akademik dürüstlüyün pozulması üzrə Komissiyanın (Universitetin İntizam Komissiyasının) sədrinə təqdim etməlidir. Komissiya təhsilalandan yazılı izahat tələb etməlidir.
2) Akademik dürüstlüyü pozmuş təhsilalanlar pozuntu faktına baxılması barədə məlumatlandırılmalıdır.
3) 3-cü kateqoriya pozuntular üzrə Komissiya (Universitetin İntizam Komissiyası) Əsasnaməyə uyğun fəaliyyət göstərir.
4) 3-cü Kateqoriya pozuntular üzrə Komissiya 25 (iyirmi beş) iş günü gündən gec olmayaraq pozuntu faktını araşdırır və təqdim edilmiş materiallarla tanış olduqdan sonra akademik dürüstlüyü pozmuş şəxslərə qarşı intizam tənbeh tədbirinin tətbiq edilməsini tövsiyə edir. Qərar protokolla rəsmiləşdirilir.
5) 3-cü kateqoriya intizam tənbeh tədbiri tövsiyə olunduqda, təhsilalan 10 (on) iş günü müddətində Apellyasiya Komissiyasının sədrinə apellyasiya şikayəti vermək hüququna malikdir.
6) Apellyasiya komissiyası apellyasiya şikayəti verilmiş iş üzrə yekun qərarı 10 (on) iş günü müddətində qəbul edir. Yekun qərara apellyasiya komissiyası tərəfindən baxıldığı müddətdə təhsilalan dərslərə buraxıla və qiymətlər ala bilər.
7) Rektorun adına verilmiş apellyasiya şikayəti rədd edildiyi halda, şikayətə baxılma müddətində tamamlanmış hər hansı iş təhsilalanın transkriptinə daxil edilməyəcək. Müvafiq fakültə dekanlığı müvafiq tənbeh tətbirinin tətbiqi barədə müvafiq əmr hazırlamalıdır.

## 6. Şikayətçi və cavabdeh tərəfin davranışı və öhdəlikləri

Şikayətçilərin və cavabdehlərin davranışı, şikayət prosesinin gedişatına və effektivliyinə, eləcə də şikayətə baxan şəxsin və ya komissiyanın üzvlərinə psixoloji və fiziki sağlamlığına, rifahına və təhlükəsizliyinə, həmçinin digər şəxslərə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

Universitet, şikayətə baxan, şikayət edən və cavabdeh şəxslərə qarşı nəzakət və hörmətin göstərilməməsi və ya qeyri-rasional davranış hallarını idarə etmək məqsədilə qabaqlayıcı və qəti tədbirlər görəcək və əməkdaşlara dəstək göstərəcəkdir.

Qeyri-rasional davranış nümunələrinə həddindən artıq israr, qeyri-real tələblər, əməkdaşlıqdan imtina, mübahisəli davranış, zorakılıq və Universitet tərəfindən qeyri-məqbul hesab edilən digər hərəkətlər daxildir.

## 7. Əks-tədbirlərdən müdafiə

Şikayət qaldırdığına və ya şikayətlərin idarə olunması prosesində iştirak etdiyinə görə hər hansı bir şəxsə qarşı qərəzli münasibət (məsələn, təcrid olunma, təhdid, qorxutma və ya daha əlverişsiz iş və ya təhsil şəraiti) qəbuledilməzdir və intizam tədbirləri ilə nəticələnəcəkdir. ATU, şikayət verən və ya bu prosesdə iştirak edən bütün tərəflərin, o cümlədən şahidlərin, mənfi nəticələrdən qorunmasını təmin etmək üçün bütün ağlabatan səyləri göstərəcəkdir.

## 8. Anonim Şikayətlər

Müraciət təhsilalanın əlaqə məlumatlarından ən azı birinin göstərildiyi hallar istisna olmaqla, bu Prosedurun 2.1-ci bəndinin tələblərinə cavab vermədikdə anonim sayılır. Anonim şikayətlər qəbul edilmir və onlara baxılmır.

## 9. Məxfilik və şəxsi məlumatların qorunması

Şikayətlə əlaqəli şəxslər ciddi məxfilik prinsiplərinə riayət etməlidirlər. Şikayətçi və cavabdeh yalnız təyin olunmuş dəstək şəxsi, həmkarlar ittifaqı və ya hüquqi nümayəndə, psixoloq və ya həkim, eləcə də birbaşa ailə üzvü və ya bir evdə yaşadığı şəxs ilə bu məsələni müzakirə edə bilərlər. Bu şəxslər də məxfiliyə riayət etməlidirlər. Məxfilik araşdırmanın bütövlüyünü qoruyur və şikayətdə iştirak edən şəxslərin hüquqlarına hörmət göstərilməsini təmin edir.

Ümumiyyətlə, şikayətlə bağlı materiallar yalnız şikayətdə iştirak edən şəxslərə və/və ya ATU-nun şikayətin idarə olunması məqsədilə açıqlamanın zəruri olduğunu hesab etdiyi hallarda açıqlanır.

Bəzi hallarda insidentlər universitetdən xarici orqanlara bildirilməlidir və bu zaman şikayətçinin, cavabdehin kimliyi və hadisənin xarakteri barədə məlumatlar açıqlana bilər. Mümkün olduqda, şikayətçi və ya müvafiq tərəfin razılığı alınacaq, lakin ATU uyğun hesab etdiyi hər hansı məsələni (məsələn, hüquq mühafizə orqanlarına və s.) yönləndirmək və müəyyən insidentləri mütləq bildirmək hüququnu özündə saxlayır – bu, razılıqdan asılı olmayaraq tətbiq oluna bilər. Elə ciddi hallar da ola bilər ki, ATU fərdlərin təhlükəsizliyini təmin etmək üçün dərhal tədbir görmək öhdəliyinə malikdir.

Şikayət prosesi zamanı toplanan məlumat və sənədlər məxfi saxlanılacaq və sənədlərin qorunması mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə idarə olunacaq.

## 10. Şikayətdən İmtina

Şikayətçi istənilən vaxt yazılı şəkildə şikayətə baxan şəxsə və şikayəti ünvanladığı Universitetin İntizam Komissiyasına məlumat verməklə şikayətindən imtina edə bilər. Bəzi hallarda əlavə tədbir görülməyə bilər, lakin ATU şikayət üzrə hərəkət etmək və ya araşdırmanı davam etdirmək səlahiyyətini özündə saxlayır.

## 11. Qeydiyyatın aparılması və məlumat mübadiləsi

Şikayətlərin idarə olunmasında iştirak edən şəxslər (istər yerli, istərsə də Universitetin İntizam Komissiyasında) müvafiq hüquqi öhdəliklərə uyğun olaraq, ATU-nun xüsusi şikayətlərin idarə olunması, araşdırılması və hesabatlılıq sistemində ətraflı qeydlər aparacaqlar. Qeydiyyatın aparılması prosesin gedişatının izlənilməsi, təkrarların qarşısının alınması və davamlı təkmilləşdirmənin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. ATU, şəxsiyyəti açıqlanmayan şikayət idarəetmə məlumatlarını Universitet rəhbərliyinə təqdim edə bilər.

**12. Apellyasiya şikayətləri**

1) Təhsilalan tərəfidən Akademik Dürüstlüyünün Pozulması üzrə Apellyasiya Komissiyası (Universitet üzrə vahid komissiya) rektorun əmri ilə, yay semestrini nəzərə almaqla akademik dürüstlüyün pozulmasına dair işlərə baxmaq üçün yaradılır.

2) Apellyasiya komissiyası 7 nəfər üzvdən (sədr, sədr müavini, katib və 4 nəfər tədris departamentinin, dekanlığın, professor-müəllim heyətinin və təhsilalanların nümayəndələrindən) ibarətdir. Komissiyanın nəzdində 4 nəfərdən ibarət işçi qrupu fəaliyyət göstərir. Komissiyanın üzvlərinin üçü daimi, dördü müvəqqəti üzvüdür. Apellyasiya Komissiyasının işinə zərurət yarandığı halda ekspert cəlb olunur. Apellyasiya Komissiyasının üzvü əvvəllər məlumat verdiyi pozuntuya dair işə baxarkən səsvermə hüququna malik deyil. Ona görə də belə işlərdə, habelə daimi üzvlərdən biri iştirak etmədikdə, Komissiyanın müvəqqəti üzvü cəlb olunur. Apellyasiya Komissiyasının bütün üzvləri səsvermə hüququna malikdir.

3) Apellyasiya Komissiyası akademik dürüstlüyün pozulması ilə bağlı işlərə baxılması tarixlərini müəyyən edir. Akademik dürüstlüyü qaydalarının pozulmasına baxan Komissiyaların intizam tənbeh tədbirinin tətbiqi haqqında qərarından sonra müəyyən olunmuş müddətdə daxil olan apellyasiya şikayətinə 10 iş günü müddətində baxılır.

**12.1. Apellyasiya şikayətlərinin verilməsi**

Təhsilalan 1-ci və ya 2-ci kateqoriya pozuntu ilə bağlı komissiyanın qərarından sonra 2 iş günü, 3-cü kateqoriya pozuntu olduqda isə 10 (on) iş günü müddətində komissiyanın intizam tənbeh tədbiri barədə qərarından sonra apellyasiya şikayəti vermək hüququna malikdir.

QEYD: Apellyasiya şikayəti yalnız təhsilalanın iddia etdiyi aşağıdakı hallarda verilə bilər:

1) Akademik dürüstsüzlük hərəkəti olmayıb və ya müəllim tərəfindən təsvir edilən pozuntu əslində akademik dürüstlük aktının tərifinə uyğun gəlmir.

2) Təqdim olunan materiallarda göstərilən akademik dürüstsüzlük hərəkəti faktiki olaraq baş verib, lakin pozuntunun kateqoriyası səhv müəyyən edilib.

3) İddia edilən akademik dürüstsüzlük hərəkəti baş verib və pozuntunun kateqoriyası düzgün müəyyən edilib, lakin müəllim tərəfindən verilən cəza uyğun olmayıb.

Apellyasiya Komissiyasında hər hansı başqa səbəbdən verilmiş digər müraciətlərə baxılmayacaq. Təyin olunmuş iclasdan əvvəl Komissiyanın sədri verilmiş ərizələrə baxacaq və yuxarıda göstərilən tələblərdən hər hansı birinə cavab vermədikdə, öz mülahizəsinə uyğun olaraq onlara baxmaqdan imtina edə bilər.

**12.2. Apellyasiya şikayətlərinə baxılma**

1) Apellyasiya şikayətinə baxılmasına başlamazdan əvvəl Apellyasiya Komissiyasının sədri təhsilalanlara aşağıdakıları xatırladır: apellyasiya şikayəti sadəcə olaraq Apellyasiya Komissiyasına akademik dürüstsüzlük hərəkətinin həqiqətən törədilib-törədilməməsi, onun hansı pozuntu kateqoriyasına aid edilib-edilməməsi və Apellyasiya Komissiyasının hansı cəza tətbiq etməli olduğu

barədə qərarı verir. Nəticədə, təhsilalanın eyni və ya daha yüngül cəza alacağına heç bir zəmanət yoxdur. Apellyasiya Komissiyası akademik dürüstsüzlük hərəkətinin baş verdiyini və pozuntunun(xətanın) əvvəllər müəyyən ediləndən daha yüksək kateqoriyaya aid edilməsini və ya pozuntunun daha ağır cəzaya layiq olduğunu müəyyən edərsə, təhsilalanın cəzası artırıla bilər.
2) Müraciət zamanı təhsilalan tərəfindən törədilən hər hansı bir dürüstsüzlük əməli olduxu halda əlavə akademik dürüstsüzlük aktlarına baxılacaq və bir qayda olaraq, 2-ci kateqoriya pozuntuları ilə bərabərləşdiriləcəkdir.
3) 1-ci və 2-ci kateqoriya pozuntular üçün apellyasiya şikayətləri üzrə Apellyasiya Komissiyasının sədri təhsilalanlara apellyasiya qərarını geri götürmək imkanı verəcək. Təhsilalan apellyasiya şikayətini geri götürməkdən imtina edərsə (və ya 3-cü kateqoriya pozuntu baş verərsə), komissiyanın sədri apellyasiya şikayətinə baxılması üzrə iclası başlayır və bundan sonra təhsilalan öz qərarını ləğv edə bilməz.
4) Apellyasiya Komissiyası iş üzrə dinləmələrə başlayır. Komissiyanın sədri müəllimdən və ya aşkar edilmiş pozuntu haqqında aktın təşəbbüskarından akademik dürüstsüzlük hərəkətinin baş verdiyini güman etməyə olan əsasları və bu pozuntunun 1, 2 və ya 3-cü kateqoriyaya aid edilməsinin səbəblərini təqdim etməyi xahiş edir. Komissiya həmçinin hər hansı sübutların nəzərdən keçirilməsini tələb edə və işin hallarının araşdırılması üçün müəllimə / aşkar edilmiş pozuntu haqqında aktı təqdim etmiş təşəbbüskara əlavə suallar verə bilər.
5) Bundan sonra Komissiyanın sədri daha sonra təhsilalana Apellyasiya Komissiyasına ərizə vermək üçün əsas olan səbəblər barədə sual verir. Bundan sonra Komissiya üzvləri hər hansı bir tərəfə və ya hər iki tərəfə əlavə suallar verə bilər.
6) Vəziyyəti müzakirə etdikdən sonra təhsilalan və müəllim iclas zalını tərk etməlidirlər, Komissiya üzvləri vəziyyəti müzakirə edib səsvermə yolu ilə qərar qəbul edir.

Standart hallarda Komissiya səsvermənin üç mərhələsini aşağıdakı kimi həyata keçirir:

**1-ci Mərhələ – işin dinlənilməsi zamanı** müəllim tərəfindən iddia edilən **akademik qeyri-dürüstlük aktının olub-olmaması** məsələsinə baxılması (Əgər təhsilalan akademik dürüstsüzlük faktını inkar etmirsə, bu səsvermə mərhələsi buraxıla bilər). Əgər çoxluq "xeyr" deyə səs verərsə, cəza verilməyəcək və təhsilalanın şəxsi işində qeyd olunan pozuntuların sayı azaldılması barədə təhsilalan və müəllimə məlumat veriləcək. Bununla belə səsvermının 2-ci mərhələsinin keçirilməsinə ehtiyac qalmır.
Əgər çoxluq "bəli" deyə səs verərsə, komissiyanın qərarı barədə müəllim və təhsilan məlumatlandırılacaq, apelyasiya proseduru zamanı baş vermiş qeyri-dürüst hərəkətlər və ya ifadələr təhsilalanın şəxsi işinə əlavə akademik qeyri-dürüstlük aktları kimi daxil ediləcək, adətən 2-ci kateqoriya kimi.
**2-ci Mərhələdə** məsələnin həllində aşağıdakılardan ibarətdir: ilkin cəzanı saxlamaq və ya dəyişdirmək (əvvəlcədən təyin olunmuş). (Tələbə pozuntu kateqoriyasına və cəza növünə görə müraciət etmədikdə, səsvermənin bu mərhələsi keçirilmiyə də bilər).
Əksəriyyət "saxlanılsın" səs verərsə, təhsilalan və müəllim bu qərardan xəbərdar olacaq və təhsilalanın şəxsi işində eyni qalacaq.
Əksəriyyət "Dəyişdirilsin" səs verərsə, komissiya müzakirə aparacaq və
müvafiq cəzaya görə səs verəcək. (Lazım gələrsə, bu mərhələdə komissiya cəzanı artıra bilər).
Hər halda, bu məsələdə müzakirə və son səsvermə Komissiya sədrinin nəzarəti altında həyata keçirilən, nəticələr təhsilalana və müəllimə bildirilir və zəruri hallarda təhsilalanın şəxsi işində Komissiyanın qərarına əsasən dəyişiklər apaarılır.

**3-cü mərhələ** ondan ibarətdir ki, işə baxıldığı zaman akademik qeyri-dürüstlük aktı baş verib verməməsi məsələsinə aydınlıq qətirilir. Əgər əksəriyyət "xeyr" səs verərsə, iş bağlanacaq. Əgər əksəriyyət "bəli" səs verərsə, müəllim və təhsilalana Komissiyanın qərarı barədə məlumat veriləcək və apellyasiya proseduru zamanı baş vermiş qeyri-dürüst hərəkətlər və ya ifadələr tələbənin şəxsi işinə əlavə akademik qeyri-dürüstlük aktı kimi daxil ediləcək. Bu hallar, adətən, 2-ci kateqoriyaya aid edilir.

**QEYD:** Apelyasiya zamanı qeydə alınan akademik qeyri-dürüstlük aktları adətən 2-ci kateqoriya pozuntu kimi qiymətləndirildiyindən, əgər təhsilalan apelyasiya prosesi zamanı əlavə akademik qeyri-dürüstlük aktlarına yol verərsə, hətta ilkin pozuntu 1-ci kateqoriyaya aid olsa belə, təhsilalana həmin fənn üzrə "qeyri-qənaətbəxş" qiymət veriləcək.